AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının
Təhsil Nazirliyinin
F-363 nömrəli 07.08 2020-ci il
tarixli qərarı ilə təsdiq
edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR

# BAKALAVRİAT SƏVİYYƏSİNİN (ƏSAS (BAZA) ALİ TƏHSİLİNİN) İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

İxtisasın (proqramın) şifri və adı: 050204 Fəlsəfə

BAKI – 2020

# BAKALAVRİAT SƏVİYYƏSİNİN 050204 Fəlsəfə İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

## 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **"050204 Fəlsəfə"** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **"050204 Fəlsəfə"** ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma bacarıqlarına;

- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə qabiliyyətlərinə;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək bacarığına;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuruna və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına;
- Sistemli düşünə bilmək, sistemləri təhlil edərək elementlər arasında əlaqələri aşkarlayıb dərk etmək, müxtəlif sahələrdə və fərqli səviyyələrdə sistemli əlaqə prinsiplərini dərk etmək, qeyri-müəyyən şəraitdə fəaliyyət göstərmək səriştəsi;
- Strateji baxış formalaşdırmaq, fəaliyətin mümkün nəticələrini görə bilmək (mümkün, ehtimal edilən və arzu olunan), dərk etmək və qiymətləndirmək qabiliyyəti, fəaliyyyətin gələcəyi haqqında aydın fikirə malik olmaq, risk və baş verə biləcək dəyişiklkləri nəzərə almaq, qərarların qəbulunda yenilikçi və yaradıcı olmaq bacarığı;
- Başqalarına qulaq asmaq, dinləmək, onların ehtiyaclarını, hərəkətlərini anlamaq, fikirlərini öyrənmək, yaranan münaqişələri həll etmək, problemlərin həllinə yönəlik kollektiv əməkdaşlıqda iştirak və fərqli yanaşmalardan istifadə bacarığı;
- Qəbul edilmiş norma, yanaşma və fikirləri tənqidi təhlil etmək, öz baxışlarına və fəaliyyətinə tənqidi yanaşmaq, cəmiyyətdə öz rolunu tənqidi qiymətləndirmək bacarığı.

**2.2 *Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:***

- Fəlsəfə sahəsində təməl araşdırma vərdişlərinə malik olmaq;(PK-1)
- Fəlsəfənin bəşər mədəniyyəti tarixində yerini, ictimai şüurun digər formaları ilə qarşılıqlı əlaqəsini aydın təsəvvür etmək, onun inkişaf meyllərini bilmək; (PK-2)
- Fəlsəfənin predmeti və əsas funksiyaları, kateqoriyaları, inkişaf prinsipləri haqqında biliklərə malik olmaq; (PK-3)

- Varlığa və insana fəlsəfi münasibətin fundamental prinsipləri, anlayışları və qanunları, əsas qnoseoloji proqramlar və strategiyalar, idrakın imkanları və hüdudları, insanın biliklərinin mənbələri, diskursiv və intuitiv bilik, rasional və rasionaldan kənar bilik növləri, elmin mahiyyəti və funksiyaları, elmi idrakın məntiqi formaları, strukturu və əsasları, elmi biliyin strukturu, biliyin empirik və nəzəri səviyyələrinin strukturu, elmi biliyin əsasları, elmi idrakın metodları, idrakın qeyri-rasional formaları haqqında biliklərə malik olmaq; (PK-4)
- Nisbilik nəzəriyyəsi, genetika, sinergetika, kibernetika və sosiobiologiyanın fundamental konsepsiyaları, ümumi prinsip və müddəaları haqqında müəyyən nəzəri təsəvvürlərə malik olmaq; (PK-5)
- Metodologiyanın tarixi tipləri, müasir metodologiyanın məktəb və istiqamətləri haqqında biliklərə malik olmaq; (PK-6)
- Siyasi reallığı müasir elmi konsepsiyalar baxımından qiymətləndirmək; dünyadakı siyasi proseslər və siyasi texnologiyalar haqqında biliklərə yiyələnərək, siyasi institutlaşma proseslərini tədqiq edə bilmək qabiliyyətinə malik olmaq; (PK-7)
- Sosioloji tədqiqatların həyata keçirilməsi və nəticələrinin təhlil edilməsi texnikasını bacarmaq; (PK-8)
- Cəmiyyət haqqında nəzəri biliklərlə tanış olaraq, sosial gerçəklikdə baş verən problemlər ətrafında müstəqil düşünmək bacarığı və tənqidi təhlil qabiliyyətlərinə malik olmaq; (PK-9)
- Siyasi araşdırma metodları, ideoloji cərəyanlar, siyasi dəyərlərə əsaslanmaqla siyasi praktika rakursunda müəyyən istiqamət seçməyi bacarmaq; (PK-10)
- Məntiqi biliklərə əsaslanmaqla anlayışlar üzərində düzgün məntiqi əməliyyatlar aparmaq, həm özünün, həm də başqalarının fikirlərinə tənqidi yanaşmaq, ziddiyyətsiz, sübutlu mühakimələr qurmaq vərdişlərinə malik olmaq; (PK-11)
- Əsaslı və inandırıcı mühakimələr irəli sürmək , mübahisə və diskussiyaların gedişində, eləcə də arqumentativ mətnlərin hazırlanması prosesində arqumentasiya nəzəriyyəsinin təməl prinsiplərindən şüurlu surətdə istifadə etmək vərdişlərinin̈ə malik olmaq; (PK-12)
- Təbii dildəki mühakimələri simvolik dildə ifadə etməklə onların məntiqi təhlilini vermək, mürəkkəb mühakimələrin və sübutların təhlilində simvolik məntiqin üsullarından istifadə etmək vərdişlərinə malik olmaq; (PK-13)
- Ümumdünya fəlsəfi-tarixi prosesin ayrı-ayrı inkişaf mərhələləri, qanunauyğunluqları, nəzəri-təcrübi nailiyyətləri haqqında biliklərə malik olmaq; (PK-14)
- Qədim Şərqdə fəlsəfi fikrin inkişaf xüsusiyyətlərini, insanların dünyagörüşünün formalaşdığı ilkin şərtləri və amilləri, Şərqdə təşəkkül tapmış fəlsəfi təlimlərin tarixi özünəməxsusluğunu və onlar arasında qarşılıqlı əlaqələri ifadə etməyi bacarmaq; (PK-15)
- Antik dövr, Avropa və müasir fəlsəfi cərəyanların xarakterik xüsusiyyətlərini araşdırmaq və şərh etmək, Avropa fəlsəfəsi tarixində keçmiş və müasirliyi əlaqələndirmək; keçmişin əsas

ideyalarından bacarıqla istifadə etmək; nəzəri bilikləri praktikada tətbiq etməyi bacarmaq; (PK-16)

- Müsəlman Şərqi ölkələri və Azərbaycan fəlsəfəsi tarixi haqqında biliklərə; ilk mənbələrlə işləmək vərdişlərinə; müsəlman Şərqi fəlsəfəsinin dünya fəlsəfəsi sistemindəki yerini müəyyənləşdirməyi bacarmaq; (PK-17)
- Dünya fəlsəfi fikrinin inkişafında türk fəlsəfəsinin yeri və rolu haqqında elmi qənaətlərə malik olmaq; (PK-18)
- Din fenomeninin fəlsəfi təhlilinin metodoloji əsaslarına, mühüm nəzəri müddəalarına və elmi-kateqorial aparatına bələd olmaq, çağdaş din fəlsəfəsinin aktual problemlərini müəyyənləşdirməyi və təhlil etməyi bacarmaq qabiliyyətinə, konfessiyalararası tolerantlıq və digər dini ənənələrə hörmət etmək vərdişinə malik olmaq; (PK-19)
- Fəlsəfi bilik sistemində etika və estetikanın yeri, əxlaqın əsas anlayışları və estetik şüurun əsas kateqoriyaları haqqında məlumatlara; estetik təlimlər tarixi, incəsənətin növləri, onların şəxsiyyətin estetik tərbiyəsində rolu haqqında biliklərə malik olmaq; (PK-20)
- Tənqidi yanaşmanı formalaşdırmaq, müasir analitik yanaşma metodundan istifadə etməklə tarixi-fəlsəfi tədqiqatlar aparmaq vərdişlərinə yiyələnmək; (PK-21)
- İxtisasla bağlı anlayış və terminlərin mənasını bilmək, arqument qurmaq və əsaslandıra bilmək, məlumatı təhlil və sintez edə bilməyi bacarmaq; (PK-22)
- Fəlsəfə üzrə əldə olunan bilikləri peşə və gündəlik fəaliyyətində istifadə etməyi bacarmaq; (PK-23)
- Peşə ilə bağlı müasir problemlərin həlli istiqamətində tədqiqatlar aparma bacarığı əldə etmək; (PK-24)
- Müasir tələblərə uyğun təqdimatlar hazırlamaq, işgüzar ünsiyyət qurmağı bacarmaq. (PK-25)
- Karyera barədə ilkin anlayışları, karyera inkişaf fəaliyyətlərini, iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını bilmək, karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün müraciət qaydalarını, peşəkar CV, rezume, istək və tövsiyə məktublarının hazırlanmasını bacarmaq; (PK-26)
- Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını bilmək, problem həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmaq, eləcə də komanda işinin qurulmasını bilmək və liderlik prinsiplərinə yiyələnmək; (PK-27)
- Layihələrin hazırlanması idarə edilməsində iştirak etmək və digər çox istifadə olunan proqram təminatlarından istifadəni bacarmaq, iş həyatında şifahi və yazılı kommunikasiya vasitələrindən istifadə etməyi bacarmaq; (PK-28)

- Media materialları ilə işləmək, müəyyən mövzular üzrə araşdırmalar aparmaq, faktiki materialları toplamaq, ümumiləşdirmək, nəticə çıxarmağı bacarmaq; (PK-29)
- Strateji düşüncə tərzini formalaşdırmaq, strateji məqsədlərin düzgün formalaşdırması, strategiyanın hazırlanması prosesində vəziyyətin analizini aparmağı bacarır; informasiya resurslarının strateji idarəolunması bacarıqlarına;strateji idarəetmə metodlarını tətbiq etməyi bacarmaq. (PK-30)

## 3. Təhsil Proqramının strukturu

3.1. **"050204 Fəlsəfə"** ixtisası üzrə Təhsil Proqramı 240 (4 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| **Fənlərin sayı** | **Fənnin adı** | **AKTS krediti** |
|---|---|---|
| | **Ümumi fənlər** | **30** |
| 1 | **Azərbaycanın tarixi**<br>Bu fənn Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranmasını, mərhələlərini, formalaşmasını və inkişafını öyrənir, müasir Azərbaycan dövlətçiliyinin güclənməsində siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolunu təhlil və tədqiq edir. Tələbələrimizdə vətənpərvərlik hissini aşılamaq üçün müxtəlif tarixi mərhələlərdə yaranmış dövlətlərin siyasi tarixi, ayrı-ayrı şəxsiyyətlərin qəhrəmanlıq nümunələri tarixi faktlar əsasında şərh olunur. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. Əsas məqsəd tələbələrdə geniş dünyagörüşünün, vətən sevgisinin, tarixi hadisələri analitik təhlil etmə qabiliyyətinin və hadisələrdən, siyasi proseslərdən düzgün nəticə çıxarmaq qabiliyyətini formalaşdırmaqdan ibarətdir. | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn cərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 15 |
| 4 | **Seçmə fənlər** (Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər). | **6** |

| | | |
|---|---|---|
| 4.1 | Fəlsəfə<br>Sosiologiya<br>Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları<br>Məntiq<br>Etika | 3 |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi<br>Sahibkarlığın əsasları və biznesə giriş<br>Politologiya | 3 |
| | **İxtisas fənləri** | **120** |
| 5 | **Müasir informasiya - kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi**<br>Fənn çərçivəsində müasir informasiya-kommunikasiya texnologiyalarının təsnifatı və xüsusiyyətləri; müxtəlif növ kompüter qurğuları və şəbəkə texnologiyaları daxil olmaqla, informasiya texnologiyalarının (İT) əsasları; İkilik say sistemləri kimi müxtəlif məlumatların təqdimetmə sxemləri; İT mühitində fəaliyyət göstərmək üçün lazım olan alətlər və tətbiqlərə giriş təqdim edilir; informasiyanın kompüter emalının əsas prinsipləri (kodlaşdırılması, saxlanması, ötürülməsi və s.) öyrədilir.<br>İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin inkişaf mərhələləri, müxtəlif sahələrdə informasiya texnologiyalarının rolu (Elektron həyat; Kommunikasiya; Virtual cəmiyyət; Elektron imza və s.); informasiya texnologiyalarının effektivliyinin meyarları, informasiya və kiber təhlükəsizlik;<br>Müasir əməliyyat sistemləri (ƏS) və onların iş prinsipi; Əməliyyat sistemlərində faylların idarə olunması;<br>Proqramlaşdırmanın əsasları;<br>Şəbəkələşmə;Veb sistemləri və texnologiyaları;<br>Veb səhifələrin hazırlanması (HTML kodları və WYSIWYG redaktorlar);<br>Süni intellekt sistemləri;<br>İnformasiya təhlükəsizliyi və ona nail olma yolları: şifrələmə üsulları; kriptosistemlər; steqanoqrafiya; informasiyanın gizlədilməsi üsulları; şəbəkə təhlükəsizliyi; rəqəm imza texnologiyası; kompüter və informasiyanın kiberhücumlardan qorunması və icazəsiz istifadəsinin qarşısını almaq üçün təhlükəsizlik tədbirlərindən istifadə etmək, antiviruslar və s.;<br>MS Office 365 paket proqramlarının tətbiqləri: MS Word mətn | 3 |

| | | |
|---|---|---|
| | prosessorunun imkanları, MS Excel cədvəl prosessorunda mürəkkəb (ixtisas üzrə) cədvəllərin qurulması, hesablamaların aparılması və s., Təqdimatların hazırlanması, PDF faylların hazırlanması və redaktəsi, Teams proqramı və s. proqramların (tətbiqi proqramların) imkanlarından istifadə;<br>Verilənlər bazası (VB), Verilənlər bazasının idarətmə sistemləri (VBİS) və onun imkanları öyrədilir. | |
| 6 | **Müasir təbiətşünaslıq konsepsiyaları**<br>"Müasir təbiətşünaslıq konsepsiyaları" fənnində təbiətşünaslığın yaranma tarixi, əsas inkişaf istiqamətləri və paradiqmaları, müasir təbiətşünaslığın mikroaləm, makroaləm və meqaaləm konsepsiyaları tədris olunur. Klassik fizika, nisbilik nəzəriyyəsi və elementar hissəciklər nəzəriyyəsinin irəli sürdüyü məkan-zaman problemi, materiya təşkilinin canlı aləm səviyyəsi, biologiyada təkamül ideyası, genetika və irsiyyət mexanizminin qanunauyğunluqları, kimya, coğrafiya, geologiya, sinergetika və həndəsənin fundamental konsepsiyaları öyrədilir. Antropogenez prosesi və onun kompleks xarakteri, insan ontogenezində sosial və bioloji amillərin nisbəti, insanda şüuri və qeyri-şüurinin nisbəti kimi problemlər nəzərə çatdırılır. | 4 |
| 7 | **Siyasət nəzəriyyəsi**<br>Fənnin çərçivəsində tələbələr siyasi nəzəriyyənin əsas kateqoriyalarını, paradiqmaları, siyasi elmin əsas metodlarını, müasir politoloji konsepsiyalar və nəzəriyyələri, siyasətin institusional və qeyri-institusional sferaları, siyasi hakimiyyətin xüsusiyyətlərini, siyasi elita və siyasi liderləri, dövlət siyasi institut kimi, siyasi partiyalar və ictimai hərəkatları, siyasi sistemlər və siyasi rejimləri, siyasi ideologiya, siyasi psixologiya, siyasi mədəniyyət və siyasi prosesləri öyrənirlər. | 3 |
| 8 | **Sosiologiya**<br>Bu fənn tarixən müəyyən sosial sistemlərin fəaliyyətinin və inkişafının sosial qanunauyğunluqlarını, habelə həmin qanunauyğunluqların şəxsiyyətlərin, sosial qrupların, birliklərin, xalqların fəaliyyətində təzahür formaları və mexanizmlərini tədqiq edir. Sosial hadisə və proseslər bütöv sosial sistem olan cəmiyyət kontekstində nəzərdən keçirilir, ümumi sosiologiyanın strukturu, predmeti, metodologiyası, metodlarının xüsusiyyətləri, müasir sosioloji biliyin nəzəri səviyyələri, eləcə də xüsusi sosioloji konsepsiyaların rəngarəngliyi təhlil edilir. Sosiologiya sayəsində cəmiyyətin, insanın həyat fəaliyyətinin sosial aspektlərinin təhlili həyata keçirilir. İnsanların, sosial qrupların, birliklərin fəaliyyətini öyrənmək texnikası və metodikası, sosial ölçmə | 4 |

| | | |
|---|---|---|
| | metodlarının tətbiqi məsələləri sosiologiyadan qaynaqlanır Sosiologiya cəmiyyət, onun hadisə və prosesləri haqqında elm olduğuna görə digər humanitar elmlər üçün nəzəri əsas kimi çıxış edir. | |
| 9 | **Ontologiya və idrak nəzəriyyəsi**<br>"Ontologiya və idrak nəzəriyyəsi" kursu üç hissədən ibarətdir.<br>**I hissə - Ontologiya:** Ontologiya kursunun tədrisində insan və dünyanın qarşılıqlı münasibətlərini müəyyən edən ən ümumi qanunauyğunluqların özünəməxsusluğu; varlığın inkişafının ən ümumi qanunları və qanunauyğunluqlarını ifadə edən kateqoriyaların məzmunu və məntiqi əlaqələri; varlığın mahiyyəti, struktur səviyyələri və onların daim dəyişilən, yeniləşən əlaqələri; materiyanın fəlsəfi anlamı; materiya ilə hərəkətin ayrılmazlığı; hərəkət, onun tipləri və formaları, məkan, zaman, onların qarşılıqlı əlaqəsi haqqında fundamental konsepsiyaların tənqidi şərhi və konkret elmlərlə əlaqəsi; məkan və zamana dair baxışların mədəniyyətlərin müxtəlifliyindən asılı olaraq fərqlənməsi; fəlsəfədə insan probleminin yeri; İnsanın mənşəyi və mahiyyəti, həyatın mənası, ölüm və ölməzliyi və s. haqqında məsələlər təhlil və şərh olunur<br>**II hissə - Qnoseologiya:** Metafizikanın ayrılmaz tərkib hissəsi olan fəlsəfi qnoseologiya dərk edən subyekt ilə dərketmə prosesinin yönəldiyi obyekt arasındakı münasibətlərin ən ümumi tərəflərini öyrənir. Burada dünyanın dərkolunanlığı prinsipi əsas götürülür və bizim varlıq haqqındakı biliklərimizin adekvatlığı məsələləri diqqət mərkəzində tutulur. Qnoseologiya ontologiya və konkret koqnitiv fənlər ilə sıx qarşılıqlı təsirdə çıxış edir. Onun konseptual sistemi aşağıdakı əsas kateqoriayalar üzərində qurulur: idrakın subyekti, obyekti və predmeti, insanın dünyaya dərkedici münasbətinin mahiyyəti, əsas qnoseoloji proqramlar və strategiyalar, idrakın imkanları və hüdudları, insanın biliklərinin mənbələri, yeni biliyin əldə olunması və əsaslandırılması, idrakın səviyyələri, diskursiv və intuitiv bilik, rasional və rasionaldan kənar bilik növləri, elmi idrakın spesifikliyi, normaları və meyarları, idrak ilə yaradıcılığın və praktikanın qarşılılı münasibətləri. Deyilənlərlə yanaşı, qnoseoloji refleksiyanın predmetinə şüur, onun ictimai təbiəti və mənbələri, strukturu, təfəkkürün mahiyyəti və dil ilə münasibəti problemləri də daxildir. Nəhayət, qnoseologiya təlimi həqiqət nəzəriyyəsi, onun əsas konsepsiyaları, həqiqətin proses kimi anlaşılması və müasir qnoseoloji situasiyanın təhlili mövzuları ilə tamamlanır.<br>**III hissə - Epistemologiya:** Epistemologiyanın predmet sahəsini elm və bilik təşkil edir. Bu fənnin tədrisi zamanı tələbələr elm anlayışının məzmunu, mahiyyəti, onun mürəkkəb xarakteri, sosial institut kimi | 18 |

| | | |
|---|---|---|
| | Yeni Dövrdə yaranması, elmin bir çox mühüm funksiya yerinə yetirməsi və onun başlıca məqsədi, elmi biliyin spesifik cəhətləri, elmin tarixi inkişafının əsas mərhələləri, elmi rasionallıq problemi, elmi idrakın məntiqi formaları, elmi idrakın metodları və metodologiyası, elmin inkişafı haqqında müasir konsepsiyalar, elmin etikası, elmin axtarış azadlığı, idrakın qeyri-rasional formaları haqqında dərin nəzəri biliklərə yiyələnirlər.<br>Epistemologiya fənni tələbələrdə müasir ictimai inkişafda elmin rolunun durmadan artması, cəmiyyətin ümumi mədəniyyət sistemində onun xüsusi status kəsb etməsi, digər ictimai şüur formaları ilə elmin sıx qarşılıqlı əlaqəsi, fəaliyyətin bütün sahələrində elmin böyük rol oynaması haqqında ətraflı təsəvvür yaradır. | |
| 10 | **Sosial fəlsəfə**<br><br>Sosial fəlsəfə ümumi fəlsəfənin ayrılmaz tərkib hissələrindən biridir. Bu elm konkret ictimai elmlərlə qarşılıqlı əlaqədə olmaqla yanaşı, həmin elmlər üçün metodoloji baza rolunu oynayır.<br>Sosial fəlsəfə cəmiyyətin varlığını, onun inkişaf qanunauyğunluqlarını, ictimai sistemin təşkili, onun ayrı-ayrı yarımsistemləri və tərəfləri arasındakı əlaqə və münasibətləri, ictimai sistem kimi götürülən cəmiyyətin problemlərini öyrənir. Bu problemlər insanların sosial vəziyyəti, ictimai əmək bölgüsündə yeri, əmək fəaliyyəti şəraiti, sosial qruplarda təmsil olunma vəziyyəti, yaşayış səviyyəsi, təhsili, səhiyyəsi, sosial təminatı və s. əhatə edir. Sosial fəlsəfə cəmiyyəti sahmanlı struktura malik bütöv bir sistem kimi öyrənir: burada əsas diqqət cəmiyyətin iqtisadi, sosial, siyasi və mənəvi sferalarının struktur elementlərinə, fəlsəfi antropologiyanın əsas problemlərinə, tarixi prosesin fəlsəfi mənalandırılmasına, mədəniyyət və sivilizasiya anlayışlarının qarşılıqlı əlaqəsinə, müasir dövrdə sosial inkişafda baş verən qlobal problemlərə yönəlir. | 12 |
| 11 | **Məntiq**<br><br>Məntiq fənninin əsas məqsədi tələbələrin məntiqi bilikləri mənimsəməsini təmin etməklə onlarda düzgün fikirləşmək, düzgün mühakimə yürütmək qabiliyyəti formalaşdırmaq və onların intellektual inkişafına təkan verməkdir. Məntiqin öyrənilməsi tələbələrdə ardıcıl, ziddiyyətsiz, sübutlu mühakimələr qurmaq, həm özünün, həm də başqalarının fikirlərinə tənqidi yanaşmaq vərdişləri formalaşdırır.<br>Məntiq kursu iki hissədən - ənənəvi (ümumi) məntiq və simvolik məntiqdən ibarətdir. Ənənəvi məntiq çərçivəsində məntiqin predmeti, məntiq və dil, anlayışlar, hökmlər, əqli nəticələr (deduktiv, induktiv, analoji), sual- cavab kompleksi, əsas formal - məntiqi qanunlar, sübut | 10 |

| | | |
|---|---|---|
| | və təkzibin məntiqi əsasları və hipotez mövzuları tədris olunur. Simvolik məntiq kursu simvolik məntiqin yaranması və inkişafı, mülahizələr məntiqinin cədvəl üsulu ilə qurulması, dusturun normal forması, düsturun konyunktiv normal forması, düsturun dizyunktiv normal forması, mülahizələr məntiqinin qanunları, mülahizələr məntiqinin düsturları və onlar arasında münasibətlər, mülahizələr hesabının qurulması, predikatlar məntiqində term və düstur anlayışları, predikatlar məntiqinin qanunları və düsturları, predikatlar hesabının qurulması mövzularının tədrisini nəzərdə tutur. | |
| 12 | **Sosial pedaqogika**<br>Bu fənn təhsil və tərbiyənin sosial pedaqoji məsələlərinin, sosiallaşma prosesinin təhlili və şəxsiyyətin formalaşması prosesinin intensivləşdirilməsi, kollektivin sosial-pedaqoji problemləri, xüsusilə müxtəlif inkişaf mərhələlərində tərbiyə işinin xüsusiyyətləri, ünsiyyət və asudə vaxt məsələləri, ailə tərbiyəsinin sosial-pedaqoji məsələləri, sosial tərbiyənin nəzəriyyəsi və metodikası kimi xüsusi aktuallıq kəsb edən problemlərin öyrənilməsi məsələlərini izah edir.<br>Kursun tədris olunması məqsədi - tələbələrin təlimə münasibətinin formalaşmasında sosial-pedaqoji amillərin rolu; ümumi və peşə təhsilinin bəzi sosial-pedaqoji məsələləri; qrupun sosial-pedaqoji xarakteristikası və təlim prosesində pedaqoji korreksiya işinin xüsusiyyətləri; ali təhsilin sosial-pedaqoji məsələləri; tələbə müstəqil işlərinin vacibliyi; tərbiyənin sosiologiyası və sosial pedaqogikada tərbiyə məsələləri; sosial tərbiyənin istiqamətləri: problemlər və vəzifələr; uşaqların tipologiyası; sosial tərbiyə məsələləri və onun idarə olunması; sosial tərbiyə prosesinin optimallaşdırılması: dolayı təsir vasitələri və s. kimi məsələlərin öyrənilməsidir. | 3 |
| 13 | **Qədim Şərq fəlsəfəsi**<br>Bu fənn fəlsəfə tarixinin mühüm tərkib hissəsi olmaqla Hindistanda, Çində və Yaponiyada fəlsəfi ideyaların, fəlsəfi məktəblərin, cərəyanların, təlimlərin meydana gəlməsi səbəblərini və inkişaf xüsusiyyətlərini təhlil edir, fəlsəfə tarixinin predmetini, fəlsəfi biliyin nəzəri səviyyələrini tədqiq edir. Kursun tədrisi tələbələrdə dünyagörüşünün formalaşmasında mühüm rol oynamaqla Şərq fəlsəfəsi, onun özəllikləri, ayrı-ayrı filosofların baxışları, fəlsəfi məktəblər, cərəyanlar, təlimlər haqqında bilik əldə etmək imkanı yaradır. Kursun əsas məqsədi - dünya fəlsəfi-tarixi prosesinin vəhdəti ideyasını təsdiqləmək, fəlsəfi ideyaların transregional xarakterini dərk etmək imkanı verir. Məqsədə çatmaq üçün fənnin tədrisində əsas vəzifələr – tələbələrdə ümumi predmet sahəsi haqqında bilik | 5 |

| | | |
|---|---|---|
| | formalaşdırmaq; tələbələrin Uzaq Şərq fəlsəfəsinə dair biliklərə yiyələnməsini təmin etmək; Uzaq Şərq fəlsəfəsi haqqında tam təsəvvür yaratmaq; fənn üzrə ilk mənbələrlə işləmək vərdişini və bu region fəlsəfəsinin dünya fəlsəfəsi sistemindəki yerini müəyyənləşdirmək bacarığını aşılamaq; tələbələri Uzaq Şərq fəlsəfəsinin müasir nəzəriyyələri ilə tanış etmək. | |
| 14 | **Din fəlsəfəsi**<br>Din fəlsəfəsi fəlsəfi biliyin mühüm sahələrindən biridir və dinin öyrənilməsində metodoloji və evristik funksiyaları yerinə yetirir. Kursun tədrisi tələbələrdə dünyagörüşünün və dinin aksioloji, fenomenoloji, psixoloji və s. aspektlərinə rasional yanaşmaq bacarığının formalaşmasına, onların din və cəmiyyətin qarşılıqlı münasibəti prosesini dərk etmələrinə imkan yaradır. Kursun əsas məqsədi - din fenomeninin fəlsəfi təhlilinin metodoloji əsaslarına, mühüm nəzəri müddəalarına və elmi-kateqorial aparatına bələd olan, çağdaş din fəlsəfəsinin aktual problemlərini müəyyənləşdirməyi və təhlil etməyi bacaran mütəxəssislər hazırlamaqdır. Məqsədə çatmaq üçün fənnin tədrisində bu vəzifələr qoyulur: tələbələrdə din fəlsəfəsinin ümumi predmet sahəsi və metodu haqqında bilik formalaşdırmaq; tələbələrin dinin fəlsəfi dərki sahəsində nəzəri və tematik biliklərə yiyələnməsini təmin etmək; tələbələrdə dinin fəlsəfi təhlili tarixi haqqında tam təsəvvür yaratmaq; tələbələrə din fəlsəfəsi üzrə ilk mənbələrlə işləmək vərdişini aşılamaq; tələbələri din fəlsəfəsinin kateqorial-anlayış aparatı ilə tanış etmək; tələbələri din fəlsəfəsinin çağdaş konsepsiyaları ilə tanış etmək. | 4 |
| 15 | **Etika və estetika**<br>Fəlsəfə ixtisasının bakalavr pilləsində tədris olunan mühüm tədris fənlərindəndir. Etika və estetikanın tarixi qədimdir. Estetika uzun müddət fəlsəfənin bir hissəsi olmuş, bu elmlər inkişaf etdikcə yalnız etik və estetik görüşlər deyil, həm də onların öyrəndiyi məsələlərin əhatə dairəsi, predmetinin özü dəyişilmişdir. Etika əxlaq fəlsəfəsi olub, insanın gerçəkliyə əxlaqi münasibətlərinin qanunauyğunluğunu, insan və cəmiyyətin əxlaqi təfəkkürünü, əxlaq normalarının mahiyyətini, insanların qarşılıqlı münasibətində özününəzarət və özünütərbiyənin rolunu, ümumiyyətlə əxlaqa və əxlaqi dəyərlərə aid olan bütün məsələləri öyrənir. Estetika etika ilə yaxından əlaqədə olmuş, onun predmeti təbiətlə sənətin qarşılıqlı münasibətini, sənət əsərlərində dünyanın hissi yolla dərk olunması xüsusiyyətlərini öyrənməklə məşğul olmuşdur. | 4 |

| | | |
|---|---|---|
| 16 | **Psixologiya**<br>"Psixologiya" nəzəri və eksperimental tədqiqatlara əsaslanan, insan psixikasının faktlarını, qanunauyğunluqlarını və mexanizmlərini, əsas psixoloji kateqoriyaları öyrənən fundamental elmdir. Psixologiya elminin nailiyyətlərindən düzgün və yerində istifadə edilməsi bütün fəaliyyət sahələrində həmişə yüksək nəticələr əldə etməyə səbəb olur. Təsadüfi deyildir ki, dünya standartlarına görə müasir mütəxəssislərin psixoloji hazırlığı onların peşə hazırlığının zəruri tərkib hissəsi sayılır və buna xüsusi əhəmiyyət verilir. Fənnin tədrisində başlıca məqsəd tələbələrdə psixika və şüur, psixikanın quruluşu, məzmunu, formalaşma və inkişaf yolları, psixologiyanın bir elm kimi xarakteristikası, psixologiyanın tədqiqat metodları, idrak və ünsiyyətin qanunauyğunluqları, şəxsiyyətin inkişafı və formalaşması xüsusiyyətləri, şəxsiyyətlərarası münasibətlər, psixi proses və emosional hallar, şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri, idarəetmə, hüquq, sosial və etnik psixologiyanın, eləcə də müasir praktik psixologiyanın ən əsas məsələləri haqqında ümumi təsəvvür formalaşdırmaqdır. "Psixologiya" fənninin qarşısında bir tərəfdən müxətlif ixtisaslarda təhsil alan tələbələri ümumilikdə insan psixologiyasına dair əsas biliklərlə tanış etmək, digər tərəfdən hər bir gələcək ixtisas sahəsinin mütəxəssisini öz sənətinə bağlı psixoloji məsələlərə istiqamətləndirmək vəzifəsi durur. | 3 |
| 17 | **Arqumentasiya nəzəriyyəsi**<br>Arqumentasiya nəzəriyyəsi fənninin əsas məqsədi tələbələrdə əsaslı və inandırıcı mühakimələr irəli sürmək , mübahisə və diskussiyaların gedişində, eləcə də arqumentativ mətnlərin hazırlanması prosesində arqumentasiya nəzəriyyəsinin təməl prinsiplərindən şüurlu surətdə istifadə etmək vərdişlərini formalaşdırmaq və inkişaf etdirməkdir.<br>Arqumentasiya nəzəriyyəsi kursu çərçivəsində Arqumentasiya nəzəriyyəsinin predmeti və formalaşması tarixi, Arqumentasiya nəzəriyyəsinin digər elmlərlə (məntiq, ritorika, nitq aktları nəzəriyyəsi və s.) qarşılıqlı əlaqəsi, müasir arqumentasiya konsepsiyaları, arqumentasiyanın tərkibi və məntiqi strukturu, universial arqumentasiya üsulları, kontekstual arqumentasiya üsulları, arqumentasiyanın məntiqi əsasları, sadə arqumentasiya və mürəkkəb arqumentasiya, dialoq arqumentasiyanın əsas forması kimi, mübahisə arqumentasiyanın xüsusi halı kimi, mübahisənin növləri və mübahisəyə verilən tələblər, arqumentasiya prosesində sual – cavab kompleksi, | 4 |

| | | |
|---|---|---|
| | arqumentasiyanın qaydaları, arqumentasiyanın strategiyası və taktikası, arqumentasiya sahəsi mövzuları tədris olunur. | |
| 18 | **Antik fəlsəfə**<br>“Antik fəlsəfə” fənninin tədrisi antik dövr mədəniyyətini, qədim yunan-roma xalqlarının dünyagörüşünü, onların fəlsəfi təfəkkür tərzini tarixi inkişaf prosesində mənimsəməyə imkanı verir, tələbələrə Qərbdə fəlsəfi ideyaların yaranması və inkişafı prosesini izləmək və tarixi kontekstdən təhlil etmək, bu region fəlsəfəsinin dünya fəlsəfəsi sistemindəki yerini müəyyənləşdirmək bacarığını aşılayır.<br>Tədris olunan bu kursda tələbələr antik fəlsəfə barədə informasiya əldə etməli, özlərində yeni dünyagörüşü, intellektual səviyyəni formalaşdırmalıdırlar. | 3 |
| 19 | **İslam fəlsəfəsi**<br>“İslam fəlsəfəsi” fənni fəlsəfə tarixi kursunun əsas tərkib hissəsini təşkil edir. Bu fənn islam dininin meydana gəlməsi, inkişafı, islam zəminində meydana gəlmiş dini-fəlsəfi cərəyanların, təlimlərin inkişaf xüsusiyyətlərini öyrənir. Kursun tədrisi tələbələrdə dünya fəlsəfi fikrinin inkişafında İslam mədəni bölgəsi fəlsəfəsinin yerini və dəyərini müəyyənləşdirmək imkanı verir, tələbələrə müsəlman Şərqi ölkələrində fəlsəfənin formalaşması və inkişafı prosesini izləmək və tarixi kontekstdən təhlil etmək bacarığını aşılayır.<br>Kursun əsas məqsədi - dünya fəlsəfi fikrinin tərkib hissəsi olan Müsəlman Şərqi fəlsəfəsinin formalaşması, tarixi inkişaf mərhələləri, səciyyəvi xüsusiyyətləri haqqında bilik əldə etmək imkanı verir. Məqsədə çatmaq üçün fənnin tədrisində əsas vəzifələr – tələbələrdə islam dini zəminində meydana gəlmiş Kəlam elmi və onun formaları, dini-fəlsəfi və qeyri-dini təlimlər haqqında geniş bilik formalaşdırmaq; İslam bölgəsi fəlsəfəsinə dair biliklərə yiyələnməsini təmin etmək; Müsəlman Şərqi ölkələrinin fəlsəfəsi haqqında tam təsəvvür yaratmaq; fənn üzrə ilk mənbələrlə işləmək vərdişini və bu region fəlsəfəsinin dünya fəlsəfəsi sistemindəki yerini müəyyənləşdirmək bacarığını aşılamaq; tələbələri İslam bölgəsi fəlsəfəsinin müasir nəzəriyyələri ilə tanış etmək. | 4 |
| 20 | **Avropa fəlsəfəsi**<br>“Avropa fəlsəfəsi” fənni fəlsəfə ixtisasının bakalavr pilləsində tədris olunan mühüm tədris fənlərindən biridir. O, peşə hazırlığı blokuna daxil olan fənlərlə sıx bağlıdır və bu fənlərin öyrənilməsi nəticəsində əldə edilmiş bilik və bacarıqlara söykənir. Kursun tədrisi Orta əsr və yeni dövr Avropa mədəniyyətini, Avropa xalqlarının dünyagörüşünü, onların fəlsəfi təfəkkür tərzini özünəməxsusluğunu tarixi inkişaf prosesində mənimsəməyə imkan verir; tələbələrə orta əsrlər xristian | 6 |

| | | |
|---|---|---|
| | fəlsəfəsini və Avropa İntibahının özünəməxsusluğunu, yeni dövrdə Avropada fəlsəfi ideyaların yaranması və inkişafı prosesini izləmək və tarixi kontekstdən təhlil etmək, həmin dövrdə meydana gəlmiş yeni fəlsəfi ideyaların, istiqamətlərin, cərəyanların, təlimlərin, məktəblərin xarakterik xüsusiyyətlərini araşdırmaq və şərh etmək, bu region fəlsəfəsinin dünya fəlsəfəsi sistemindəki yerini müəyyənləşdirmək bacarığını aşılayır.<br>Tədris olunan bu kursda tələbələr Avropa fəlsəfəsi tarixinin böyük bir inkişaf mərhələsi haqqında informasiya əldə etməli, özlərində yeni dünyagörüşü, intellektual səviyyəni formalaşdırmalıdırlar. | |
| 21 | **Müasir fəlsəfə**<br>"Müasir fəlsəfə" fənni dünya fəlsəfi-tarixi prosesinin vəhdəti, qarşılıqlı əlaqəsi, varislik prinsipi ideyasını təsdiqləmək, Şərq fəlsəfi düşüncəsində olan qərb radikallığını dəf etmək, fəlsəfi fikrin dövrü inkişaf xarakterini dərk etmək imkanı yaradır. Kursun tədrisi tələbələrdə müxtəlif fəlsəfi nəzəriyyə və konsepsiyaların tarixi baxımdan təhlilini vermək, XX əsrdə meydana gəlmiş yeni fəlsəfi ideyaların, istiqamətlərin, cərəyanların, təlimlərin, məktəblərin xarakterik xüsusiyyətlərini araşdırmaq, fəlsəfənin gələcək inkişaf yollarını müəyyənləşdirmək bacarığını aşılayır.<br>Kursun əsas məqsədi - dünya fəlsəfi fikrinin əsasını təşkil edən müasir Şərq və Qərb fəlsəfəsinin formalaşması, tarixi inkişaf mərhələləri, varislik əlaqəsi haqqında nəzəri bilik əldə etmək imkanı yaratmaqdır. Avropada yaranmış bəzi fəlsəfi təlimlərin Şərqə yayılaraq, ənənəvi ruhda, milli dəyərlərə söykənərək inkişaf etdirilməsi və Şərqlə Qərb arasındakı oxşarlıq və fərqliliyi təhlili etmək bacarığını tələbələrə öyrətmək qarşıda duran əsas məsələlərdəndir. | 5 |
| 22 | **Türk xalqlarının fəlsəfi fikir tarixi**<br>"Türk xalqların fəlsəfi fikir tarixi" fənninin tədrisi tələbələrdə dünya fəlsəfi fikrinin inkişafında türk fəlsəfəsinin yeri və rolu haqqında elmi qənaətlər formalaşdırır. Fənnin hüdudları daxilində bir sıra prioritet məsələlər öz həllini tapır:<br>- Türk xalqlarının fəlsəfi düşüncə sisteminə yeni konseptual yanaşma təqdim olunaraq türk fəlsəfəsi ümümdünya fəlsəfi fikrinin üzvi tərkib hissəsi kimi dəyərləndirilir. Türk sivilizasiyasının ümumdünya sivilizasion təsnifatında yer almasını qəbul etməyən, bu tarixi sərvəti təhrif edən avropamərkəzçilik cərəyanının mürtəci mahiyyəti tənqid olunur.<br>- Dünya mədəniyyəti xəzinəsinə böyük töhfələr vermiş böyük Türk mütəfəkkirlərinin tarixi-fəlsəfi irsi tələbələrə çatdırılır, onlarda milli sahiblik hissinin, tarixi keçmişə marağın,özünütəsdiq imkanlarının | 4 |

| | | |
|---|---|---|
| | yaranmasına, peşəkar filosof kadrlar kimi formalaşmasına zəmin yaradılır.<br>- Müasir Türk birliyi ideyasının nəzəri mənbələrinin, XIX əsrin sonu XX əsrin əvvəllərində milli oyanış hərəkatının görkəmli nümayəndələrinin zəngin fəlsəfi-siyasi irsinin tələbələrə çatdırılması tarixi ədalətin bərpasına xidmət edir və türk fəlsəfi dünyagörüşünün türk identikliyinin formalaşmasında rolunu vurğulayır<br>- XXI əsrdə Müasir Türk dünyasının məşhur filosoflarının tədqiqatları ilə tanışlıq tələbələrdə müstəqil dünyagörüşü formalaşdırır, onlarda müqayisəli təhlil imkanlarını yaradır. | |
| 23 | **Siyasət fəlsəfəsi**<br>Bu fənn siyasi ideyaları, siyasi dəyərləri, bütövlükdə siyasi gerçəkliyi və onun intellektual əsaslarını öyrədir. Siyasət, hakimiyyətin təbiəti, dövlət və ədalət, mülkiyyət kimi məsələlərə dair ideyaların, konsepsiyaların, təlim və nəzəriyyələrin təkamülü müqayisəli təhlil əsasında öyrənilir. Fənn çərçivəsində siyasi ideologiyalar konsepsiyalar sistemi kimi nəzərdən keçirilir, siyasi ideologiyaların siyasi sistemdə rolu, fəlsəfi təlimlərdə hakimiyyət fenomeni, legitimliyə yanaşmalar, fəlsəfi fikrin təkamülündə dövlət ideyası, suverenliyin dialektikası kimi məsələlər tədris olunur. Liberalizm, anarxizm, marksizm, konservatizm, faşizm, ekolopizm, dini fundamentalizm və s. ideologiyalarının öyrənilməsinə diqqət yetirilir. Siyasət fəlsəfəsinin fundamental konsepsiyası kimi ədalət, azadlıq, bərabərlik və demokratiyanın fəlsəfi aspektləri barədə biliklər verilir. Demokratiya haqqında qədim və müasir konsepsiyalara, siyasət fəlsəfəsində əxlaqın yeri və rolu, siyasi əxlaq, informasiya cəmiyyəti və informasiya azadlığı, sosial münaqişələr və onların problematikası, geopolitika probleminə diqqət yetirilir. Modernləşmə, post-modernizm və qloballaşma, siyasət fəlsəfəsinin ekspert-analitik potensialı və onun gələcəyi, siyasi analitika və siyasi ekspertiza kimi problemlər kursun tədrisində təhlil olunur. | 4 |
| 24 | **Strateji idarəetmə**<br>Fənn çərçivəsində strateji idarəetmə və planlaşdırma, onun tarixi, əsas prinsipləri, məqsədləri, informasiya resurslarının strateji idarəolunması, informasiya savaşı, psixoloji savaş və təbliğat (propaqanda), siyasət sahəsində strateji idarəetmə, sosial sahədə strateji idarəetmə, iqtisadi sahədə starteji idarəetmə, strategiyanın hazırlanması prosesində vəziyyətin analizi, strateji məqsədlərin düzgün formalaşdırılması, daxili və xarici mühitin nəzərə alınması, təhlili, qərar qəbul etmə prosesi, qərarların qəbul edilməsi prosesində risklərin | 4 |

| | | |
|---|---|---|
| | minimuma endirilməsi, strategiyaların qiymətləndirilməsinin kəmiyyət və keyfiyyət göstəriciləri, strategiyaların reallaşdırılması, nəzarət, strateji idarəetmənin effektliyinin qiymətləndirilməsi, qərar qəbul etmənin metodları, strateji idarəetmənin modelləri, strateji idarəetmənin instrumentləri kimi məsələlər tədris olunur. Əsas diqqət starteji təhlilin metodlarının öyrənilməsinə yönləndirilir. | |
| 25 | **Hüquq fəlsəfəsi**<br>"Hüquq fəlsəfəsi" fənni bir çox tarixi-hüquqi fənlərlə məntiqi və məzmun-metodiki əlaqədə olaraq, hüququn yaranması, inkişafı və transformasiyası haqqında bütöv təsəvvür yaratmağa imkan verir, hüquq fəlsəfəsinin predmeti, funksiyaları, metodologiyası, hüquq mədəniyyəti və hüquqi şüura dair biliklər verir. Fənnin tədrisinə hüququn meydana gəlməsinin fəlsəfi təhlili, hüququn mahiyyətinin anlaşılması metodologiyasının məzmunu, strukturu, hüquq və hüquqi şüurun əlaqəsi, hüquq və din, hüquq və əxlaq problemləri, hüquq fəlsəfəsi tarixinin əsas inkişaf mərhələləri və s. problemlər daxildir. Antik hüquqi konsepsiyalar, Orta əsrlər, İntibah, Maarifçilik və Yeni dövrdə fəlsəfi-hüquqi ideyalar, klassik alman filosoflarının və marksist filosofların hüquq fəlsəfəsi və müasir konsepsiyalarda hüquq fəlsəfəsi problemlərinə münasibət haqqında məlumat verilir. Bu fənn sosial-hüquqi hadisələri təhlil etmək, sosial və hüquqi hadisələrin qarşılıqlı əlaqəsini, nəzəri hüquqi biliklərin sosio-mədəni şərtlənməsini və onların cəmiyyətin inkişafına təsirini anlamaq üçün vacib olan nəzəri bilik, praktik vərdiş və bacarıqlar formalaşdırır. | 3 |
| 26 | **Azərbaycan fəlsəfə tarixi**<br>"Azərbaycan fəlsəfəsi tarixi" fənnanintədrisi dünya fəlsəfi fikrinin inkişafında Azərbaycan mədəni bölgəsi fəlsəfəsinin yerini və dəyərini müəyyənlədirmək imkanı verir; tələbələrə Azərbaycanda fəlsəfənin formalaşması və inkişafı prosesini izləmək və tarixi kontekstdən təhlil etmək bacarığını aşılayır.<br>Tədris olunan bu fənn sayəsində tələbələr Azərbaycan fəlsəfəsi tarixinin inkişaf mərhələləri haqqında məlumat əldə etməli, Azərbaycan ərazisində təşəkkül tapan əski inanclar, dini-mifoloji təsəvvürlər, fəlsəfi dünyagörüşləri və onların Azərbaycan xalqının formalaşmasında, zaman- zaman özünütəsdiqindəki əhəmiyyətli rolu və səciyyəvi xüsusiyyətləri haqqında geniş bilik əldə etməli, özlərində yeni ideya və dünyagörüşü formalaşdırmalıdırlar. Tələbələr bu fəndən əldə etdikləri bilikləri iş təcrübələrində tətbiq etmək bacarığına nail olmalıdırlar. | 4 |
| 27 | **İqtisadiyyatın əsasları** | |

| | | |
|---|---|---|
| | Fənn çərçivəsində iqtisadi nəzəriyyənin əsas qanun və kateqoriyaları, iqtisad elminin konsepsiyaları və müasir iqtisadi fikrin əsas istiqamətləri, iqtisadi proseslər, iqtisadi qanunauyğunluqlar, iqtisadi alətlər, iqtisadi mexanizmlər, iqtisadi resurslar, bazar iqtisadiyyatı, bazar iqtisadiyyatında dövlətin rolu və funksiyaları, iqtisadi fəaliyyət, iqtisadi artım, milli iqtisadiyyat və dünya təsərrüfatı, makroiqtisadiyyat, mikroiqtisadiyyat, bazar iqtisadiyyatının modelləri haqqında biliklər əldə olunacaq; bazar iqtisadiyyatının ümumi xarakteristikası verilir və məhdud iqtisadi ehtiyatların səmərəli istifadə olunmasında bazar mexanizminin rolu müəyyənləşdirilir;iqtisadi subyeklərin qərar qəbul etməsini şərtləndirən prinsiplər mənimsənilir. | 3 |
| 28 | **Mülki müdafiə**<br>Fənn çərçivəsində fövqəladə halların qarşısının alınması və aradan qaldırılması üçün vahid dövlət sistemi, təbii fəlakətlər zamanı təhlükəsizliyin təmin edilməsində vətəndaşların hüquq və vəzifələri, fərdi və kollektiv müdafiə prinsipləri, qəza-xilasetmə və digər təxirəsalınmaz işlər, ilk tibbi yardımın göstərilməsi, təcili təxliyə və bərpa tədbirləri, təhsil sahəsində mülki müdafiə tədbirləri təşkil etmək kimi məsələlər tədris olunur. | 3 |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər**[1]<br>Burada olan fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisasın tədris planında əksini tapır. | 60 |
| | **Təcrübə** | **30** |
| **Cəmi** | | **240** |

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm

[1] Bu fənlər professor-müəllim heyətinin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər tələbələr üçün seçmə xarakteri daşımalı, eləcə də tələbələrin xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır.

şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;
- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s.

***Qeyd:*** *sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə

də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

***Qeyd:** sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi müvafiq qaydalara uyğun olaraq qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. **“050204 Fəlsəfə”** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn yüksək ixtisaslı mütəxəssislər, həmçinin müvafiq ixtisas qrupu üzrə minimum magistr dərəcəsinə sahib olan şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisasın xüsusiyyətlərindən asılı olaraq təcrübənin təşkili qayadaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, yerli, yaxud beynəlxalq özəl təşkilat və şirkətlərdə və s.) təşkil oluna bilər.

8.3. Təcrübə prosesindən maksimal fayda əldə etmək məqsədilə tələbələr ilkin hazırlıq prosesinə cəlb edilməli (karyera palanlanması) və onların müvafiq bacarıqları (yumşaq və sərt bacarıqlar) fromalaşdırılmalıdır.

8.4. Təcrübənin təşkili ali təhsil müəssisəsinin vəzifəsidir. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq qurum arasında müqavilə imzalanmalıdır. Müqavilədə təcrübənin keçirilmə şərtləri, tələbələrin hüquq və vəzifələri və digər zəruri təfərrüatlar əks olunur. Təcrübəni təşkili iki formada təklif olunacaqdır. İmzalanmış müqaviləyə uyğun olaraq, tələbələr müvafiq şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən tələbələr qarşı tərəfin razılıq sənədlərini universitetə təqdim edəcəkdir. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər qurumlarda, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir.

8.5. Təcrübənin təşkilinin ikinci forması isə, tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, müxtəlif özəl və dövlət qurumlarında ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərə həll yolları tələbə və mentor müəllimlərin birgə fəaliyyəti ilə təhlil və tədqiq ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.

8.6. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkdir.

## 9. Məşğulluq və ömürboyu təhsil

9.1. **"050204 Fəlsəfə"** ixtisası üzrə məzun olan tələbələr əsasən dövlət qurumlarında, yerli özünüidarəetmə orqanlarında və mülkiyyət formasından asılı olmayaraq müxtəlif müəssisələrdə təhlilçi kimi fəaliyyət göstərə bilərlər. Bundan əlavə, məzunlar tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən sahədə, təşkilatda, idarədə, müəssisədə, birlikdə, qurumda, sosial və humanitar bloka daxil olan nazirlik və komitələrdə, həmçinin agentlikliklərdə və araşdırma/beyin mərkəzlərində mütəxəssis/məsləhətçi olaraq da çalışa bilərlər.

9.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

*9.3.* **"050204 Fəlsəfə"** ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini "Humanitar və sosial" ixtisaslar qrupuna daxil olan "060202 Fəlsəfə", "060208 Politologiya"(bəzi

ixtisaslaşmalar üzrə), "060214 Dinşünaslıq" (bəzi ixtisaslaşmalar üzrə), "060216 Dövlət və ictimai münasibətlər", "060206 Tarix"(müəyyən ixtisaslaşmalar üzrə), "060204 Jurnalistika"(bəzi ixtisaslaşmalar üzrə), Səhiyyə, rifah və xidmət ixtisasları qrupuna daxil olan "060805 Sosial iş"(bəzi ixtisaslaşmalar üzrə), Mədəniyyət və incəsənət ixtisasları qrupuna daxil olan "060302 Sənətşünaslıq"(müəyyən ixtisaslaşmalar üzrə) Magistr proqramlarında davam etdirə bilərlər.

**9.4.** Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini,

Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

______________ Yaqub Piriyev

"06" 08 2020-ci il

Humanitar və sosial ixtisaslar qrupu üzrə

Dövlət Təhsil Proqramlarını Hazırlayan işçi qrupun sədri

______________ Fariz İsmayılzadə

"05" avqust 2020-ci il

**Əlavə 1**

**Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri**

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənn üzrə gözlənilən təlim nəticələrini müəyyən etməlidir. *Aşağıdakı cədvəllərdə ən azı 6 təlim nəticəsi sadalanmalıdır (Təhsil Proqramı və hər fənn üzrə ayrılıqda)*

| **Təhsil Proqramının təlim nəticələri (PTN)** |
| --- |
| PTN 1. Yüksək yaradıcı və tənqidi təfəkkürə, vətənpərvərliyə, geniş erudisiyaya, sosial-siyasi məsuliyyətə, yazılı və şifahi nitq vərdişlərinə, liderlik qabiliyyətinə yiyələnir, Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə yiyələnmək, ixtisas üzrə Azərbaycan və xarici dillərdə işgüzar və akademik kommunikasiya yarada bilmək, bu dillərdə ilk mənbələrdən istifadə etmək, ixtisasla bağlı tədqiqatların nəticələrini emal etmək səriştəsinə malik olmaq üçün informasiya texnologiyaları barədə təməl biliklərə sahib olmaq. |
| PTN 2. Fəlsəfənin bəşər mədəniyyəti tarixində yerini, ictimai şüurun digər formaları ilə qarşılıqlı əlaqəsini aydın təsəvvür etmək, onun inkişaf qanunauyğunluqlarını və prinsipləri bilmək, müstəqil şəkildə keçmiş fəlsəfi problematikanı müasir fəlsəfə ilə müqayisə etmək bacarığını formalaşdırmaq, fəlsəfi ideyaların tədqiqat məsələlərinin elmi və praktik dəyərini qiymətləndirmək, fəlsəfə tarixindən əldə edilən konsepsiyalara yeni təfəkkür kontekstindən tənqidi, yaradıcı yanaşmaq və onu əsaslandırmaq; ölkədə həyata keçirilən sosial-iqtisadi və hüquqi siyasətin və müvafiq islahatların fəlsəfi mahiyyətini anlamaq, iqtisadi, siyasi, elmi-texniki, sosial və digər faktorların təşkilatların gələcəyinə təsirini müəyyənləşdirməklə strategiyalar seçməyi, hüquqi hadisələrin sosial mahiyyətinin aşkar edilməsi istiqamətində vəzifələri həll etməyi bacarmaq. |
| PTN 3. Ontologiyanın kateqorial aparatı, varlığın ən ümumi inkişaf qanunauyğunluqlarını ifadə edən kateqoriyaların məzmunu, onların konkret elmlərlə əlaqəsi, şüurun mənşəyi, biliyin mahiyyəti, strukturu və əsas səviyyələri, idrakın növləri, idrakın rasional, qeyri-rasional və irrasional formaları, elmi tədqiqat metodları haqqında müasir biliklər əldə etmək və fəlsəfi fikirdə əsas yer tutan qnoseoloji proqramları və strategiyaları təhlil etmək. |
| PTN 4. Bir tədqiqatçı kimi qarşısına qoyduğu məqsəd və vəzifələri düzgün dərk etməklə, onları reallaşdırmağın metod və üsullarını aydın görməklə nəzəri nəticələrə və həqiqi ümumiləşdirmələrə nail olmaq bacarıqlarını, təbii-elmi və sosial-humanitar idrak metodologiyaları, metodologiyanın tarixi tipləri, müasir metodologiyanın məktəb və istiqamətləri, təbiətşünaslığın inkişaf tarixi və paradiqmaları, müasir təbiətşünaslığın panoraması, elmi metod və təbii-elmi idrakın sistemi və xüsusiyyətləri haqqında müasir bilikləri nümayiş etdirmək. |
| PTN 5. Dünya fəlsəfi-tarixi prosesinin vəhdəti ideyasını qəbul edərək, fəlsəfi ideyaların transregional xarakterini dərk etmək, dünya fəlsəfəsi tarixinin mövcud problemlərini |

| |
|---|
| müəyyənləşdirib, bugünki vəziyyətini müstəqil olaraq təhlil etmək, keçmiş və müasirliyi əlaqələndirmək, hər bir fəlsəfi məktəbin dünya fəlsəfəsi tarixində yerini, rolunu və əhəmiyyətini şərh edə bilmək |
| PTN 6. Azərbaycan fəlsəfəsi tarixinin əsas inkişaf mərhələləri və hazırki vəziyyəti haqqında mülahizə sürmək, keçmiş və müasirliyi əlaqələndirmək,Türk-İslam mədəniyyətinin formalaşması prosesi, Türk xalqlarının tarixi təkmilləşməsinə, fəlsəfi baxışlar sisteminin zənginləşməsinə təsir edən amillər, onun müxtəlif mədəniyyətlərin qarşılıqlı nüfuz etmə prosesi nəticəsində yaranması haqqında müasir konsepsiyaları təhlil edə bilmək, ilk mənbələrlə işləməyi bacarmaq. |
| PTN 7. Siyasi proseslər haqqında informasiyaları ümumiləşdirmək, sistemləşdirmək, tənqidi təhlil əsasında onların həllinin optimal yolları barədə qənaətlər irəli sürmək bacarıqlarına yiyələnmək, klassik və müasir sosial-fəlsəfi nəzəriyyələrin problemlər sahəsinə daha dərindən bələd olmaq, professional məsələlərin həlli zamanı humanitar və sosial-iqtisadi elmlərin əsas metod və qanunlarından istifadə etmək, iqtisadi reallığın mənəvi-praktik mənimsənilməsi yolu ilə iqtisadi şüurun formalaşmasına nail olmaq. |
| PTN 8. Konfessiyalararası tolerantlıq və digər dini ənənələrə hörmət etmək vərdişinə yiyələnmək, əxlaqın əsas anlayışları, estetik şüurun əsas kateqoriyaları, incəsənətin şəxsiyyətin estetik tərbiyəsində rolu haqqında biliklərə malik olmaq. |
| PTN 9. Məntiqin prinsip və qanunlarının köməyi ilə hadisələrə obyektiv qiymət vermək, onlardan düzgün nəticələr çıxarmaq, məntiqi – rasional arqumentləri digər arqumentlərdən fərqləndirmək, opponentin mövqeyini tənqid etmək, onun mühakimələrindəki səhvləri, ziddiyyətləri və qeyri – korrekt priyomları aşkara çıxarmaq vərdişləri əldə etmək. |
| PTN 10. Strateji məqsədlərin düzgün formalaşdırması, strategiyanın hazırlanması prosesində vəziyyətin analizini aparmağı bacarır; İnformasiya və psixoloji savaş şəraitində müəyyən olunmuş strateji idarəetmə vəzifələrini icra etməyi bacarmaq; Siyasət, sosial və iqtisadi sahələrdə strateji idarəetməni həyata keçirməyi bacarmaq. |
| PTN 11. İqtisadi nəzəriyyənin, mikro və makro iqtisadiyyatın əsaslarını, Beynəlxalq iqtisadi münasibətlər üzrə anlayışları bilmək, müxtəlif ölkələrin iqtisadiyyatını müqayisəli şəkildə təhlil etməyi bacarmaq, beynəlxalq biznes, beynəlxalq ticarət, tədiyə balansı və beynəlxalq maliyyə ilə bağlı anlayışları dərindən bilmək, müxtəlif milli iqtisadiyyatlar arasındakı qarşılıqlı münasibətlər, onların beynəlxalq iqtisadiyyatdakı rolu, təkamülü və nəticələri haqqında biliklərə sahib olmaq, dövlət və özəl sektor tərəfindən həyata keçirilən beynəlxalq iqtisadi münasibətlərdə optimal qərar qəbul etmək prossesi və metodlarını bilmək, iqtisadi diplomatiya yolu ilə bazar payını artırmaq və riskləri azaltmaq istiqamətində təkliflər hazırlamağı bacarmaq; |

## Fənn üzrə təlim nəticələri (FTN)

| **“Azərbaycan tarixi” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən,ilk sivilizasiya məkanlarından biri olmasını müəyyən etməyi bacarır. |
| FTN 2 Azərbaycanın müxtəlif dövrlərdə dövlətçiliyinin təşəkküllü şəraitini, siyasi, beynəlxalq amilləri təhlil etməyi bacarır. |
| FTN 3 Azərbaycanda milli-dövlətin təşəkkülü, formalaşmasında ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil etməyi bacarır; azərbaycançılıq ideologiyasını dərk edir. |
| FTN 4 Müxtəlif dövrlərdə Azərbaycan dövlətçiliyinin zəifləməsinə təsir göstərmiş xarici və daxili amilləri təhlil etməyi və ümumiləşdirməyi bacarır. |
| FTN 5 Azərbaycan dövlətinin müasir dünyada yeri və rolunu sistemli şəkildə öyrənmək. |
| FTN 6 Azərbaycan tarixinin inkişafının tarixi təcrübəsindən düzgün nəticələr çıxarmağı bilmək. |
| FTN 7 Müasir mərhələdə Azərbaycan dövlətçiliyinin güclənməsini şərtləndirən amilləri, şəxsiyyətin rolunu təhlil və müəyyən etməyi bacarır. |

| **“Azərbaycan dilində işgüzar və akademik kommunikasiya”** fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1** Qloballaşma şəraitində Azərbaycan dili və ona göstərilən dövlət qayğısı ilə bağlı məlumatlara yiyələnmək. Dövlət dili haqqında fərman və sərəncamlar, “Ulu öndər Heydər Əliyev və Azərbaycan dili” mövzusunda təqdimatlar hazırlamağı öyrənmək; “Azərbaycan dilində işgüzar və akademik kommunikasıya” fənninin məqsəd və vəzifələrini bilmək. Kommunikasiyanın forma və funksiyaları, kommunikasiya səviyyələri barədə biliklərə sahib çıxmaq. |
| **FTN 2** Akademik kommunikasiya prosesində köməkçi nitq hissələrinin rolunun nədən ibarət olduğunu mənimsəmək; şifahi və yazılı kommunikasiyalar, habelə nitqə verilən tələblər: nitqin düzgünlüyü, dəqiqliyi, aydınlığı, səlisliyi, təmizliyi, yığcamlığı, sadəliyi, zənginliyi , rabitəliliyi və digər önəmli məsələlərin rolunu müasir tələblər səviyyəsində öyrənmək. |
| **FTN 3** Kommunikasiya ritorikasının nədən ibarət olduğunu, ədəbi dilin üslublarını, Azərbaycan ədəbi dilinin aktiv və passiv leksikasını bilmək. Ədəbi dil və kommunikativlik, kommunikativliyin növləri, kommunikativlikdə rabitə və kommunikativ strategiya və yaradıcılıq texnologiyalarını mənimsəmək. |
| **FTN 4** Dinləmə mədəniyyəti və dinləmənin kommunikasiya növü kimi mahiyyətini öyrənmək. Dinləmə və diqqət, dinləmə formaları, dinləmə bacarıqlarının təkmilləşdirilməsinin önəmini qavramaq; kommunikasiya mədəniyyəti, danışıq etikası və müraciət etiketləri barədə məlumatlara yiyələnmək; təşkil olunmuş nitqin (mühazirə, məruzə, çıxış, spontan nitq) özünəməxsusluğunu bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmaq. |

| |
|---|
| **FTN 5** Müasir Azərbaycan dilinin işgüzar üslubu barədə məlumatları və qaydaları öyrənmək; İşgüzar kommunikasiyada məktubların rolu, elektron və onlayn kommunikasiyalar barədə biliklərini zənginləşdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmaq. |
| **FTN 6** Rəsmi-işgüzar sənədləri dili barədə məlumatları öyrənmək; işgüzar kommunikasiyaların növləri və formaları, həmçinin dili və üslubu barədə məlumatlara yiyələnmək. İşgüzar kommunikasiyada Azərbaycan dilinin saflığının, orfoqrafiya qaydalarının və cümlə quruluşuna əməl olunmasının mahiyyətini öyrənmək. İşgüzar ritorika haqqında nəzəri və praktik çalışmalara sahib çıxmaq. |
| **FTN 7** Azərbaycan dilində ixtisas üzrə yazılı və şifahi təqdimatlar hazırlamağı bacarmaq. |

| **"Xarici dildə işgüzar və akademik kommunikasiya" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN1 Yazılı və şifahi nitq prosesində xülasələşdirmək, parafraz etmək, sintez etmək kimi bacarıqlar nümayiş etdirmək. |
| FTN 2 Nisbətən mürəkkəb mətnləri oxuyub təhlil edə bilmək; dinlədiyi və oxuduğu mətnin (ixtisasına uyğun elmi, ictimai-siyasi və s.) icmalını təqdim edə bilmək. |
| FTN 3 Müəyyən edilmiş məqsədə uyğun yazı strategiyaları seçə bilmək; müxtəlif janrlarda yazı nümunələri nümayiş etdirmək; yazılı şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| FTN 4 Effektiv ünsiyyət yaratmaq üçün sual müdaxiləsi, empatik dinləmə, məlumatı dəqiqləşdirmə, məlumatı əlavə təfərrüatla zənginəşdirmə və s. kimi texnologiyalara yiyələnmək. |
| FTN 5 İxtisas sahəsi daxilində müzakirələrdə iştirak edə bilmək; şifahi şəkildə işgüzar kommunikasiya yaratmağı bacarır. |
| FTN 6 Öyrəndiyi dildə yazılı təqdimatlar hazırlamağı bacarır. |
| FTN 7 Konkret sual ətrafında rabitəli, məntiqli və adekvat şifahi və yazılı mətn formalaşdırmaq. |

| **"Müasir informasiya- kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Yeni informasiya texnologiyaları və onların rolu haqqında bilikləri əldə edir. |
| FTN 2 Müasir informasiya- kommunikasiya texnologiyalarının növləri, təsnifatı haqqında biliklərə yiyələnir. |
| FTN 3. İnformasiya cəmiyyətinin konsepsiyası və xüsusiyyətləri, cəmiyyətin informasiyalaşdırılması prosesinin əsas mərhələləri haqqında biliklər qazanır. |
| FTN 4. Müvafiq ixtisas sahəsində müasir texnologiyalardan istifadə etmək praktikasına yiyələnir. |
| FTN 5. Müvafiq ixtisas sahəsində informasiya texnologiyalarının rolunu və effektivlik meyarlarını qiymətləndirir. |

| |
|---|
| FTN 6. Müasir Əməiyyat Sistemlərinin iş prinsipini mənimsəyir. |
| FTN 7. Proqramlaşdırma bacarığına yiyələnir. |
| FTN 8. Veb sistemləri və texnologiyası sahəsində biliklərə yiyələnir və praktik iş təcrübəsi əldə edir. |
| FTN 9. Süni intellekt, ekspert sistemləri və s. haqqında biliklər əldə edir. |
| FTN 10. İnformasiya təhlükəsizliyi, ona nail olma yolları ilə bağlı bacarıqları formalaşır. |
| FTN 11. Ms Office 365 paket proqramlarını mənimsəyir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |
| FTN 12. Verilənlər bazası haqqında biliyə yiyələnir və müvafiq ixtisas sahəsi üzrə tətbiq edir. |

| **"Müasir təbiətşünaslıq konsepsiyaları" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Təbiətşünaslığın inkişaf tarixi və paradiqmaları, müasir təbiətşünaslığın panoraması, elmi metod və təbii-elmi idrakın sistemi və xüsusiyyətləri haqqında biliklərə malik olmaq. |
| FTN 2 Müasir təbiətşünaslığın əsas konsepsiyaları: məkan və zaman problemi, materiya təşkilinin struktur səviyyələri, mikro, makro və meqaaləm konsepsiyaları, canlı və cansız təbiətin özünütəşkili haqqında biliklərə yiyələnmək. |
| FTN 3 Müasir təbiətşünaslığın əsas prinsipləri: simmetriya prinsipi və saxlama qanunları, qeyri-müəyyənlik və əlavəlilik prinsipləri, təbiətdə dinamik və statistik qanunauyğunluqlar, entropiyanın artması qanunu, qlobal təkamülçülüyün prinsipləri haqqında bilikləri əldə etmək. |
| FTN 4 Müasir təbiətşünaslığın materiya təşkilinin bioloji səviyyəsinin xüsusiyyətləri, kimyəvi sistemlər və kimyəvi proseslər energetiyası, geoloji proseslər və geoloji hərəkət, müasir coğrafiyanın fundamental konsepsiyalarının xarakteristikası haqqında biliklər əldə etmək. |
| FTN 5 Təbii-elmi idrakda insan problemi, insan və kosmos, biosfera-noosfera-insan sisteminin ziddiyyətləri, təbiət və sinergetikanın yeni dialoqu haqqında biliklərə yiyələnmək. |
| FTN 6 Müasir təbiətşünaslığın metodoloji prinsiplərinə, dünyanın müasir elmi mənzərəsinin konseptual aparatına yiyələnmək. |

| **"Siyasət nəzəriyyəsi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Seçki prosesinin və siyasi hakimiyyətin formalaşmasını təhlil edərək onun demokratikliyini ölçmə səriştəsinə. |
| FTN 2 Siyasi proseslərdə iştirak etmək, liderlik və idarəetməyi bacarmaq. |
| FTN 3 İdeoloji və psixoloji hücumlara qarşı müqavimət göstərmək və ölkənin siyasi maraqlarını müdafiə etmək bacarığına. |
| FTN 4 Müasir politoloji konsepsiyaları və nəzəriyyələri mənimsəyərək siyasi prosesləri təhlil etmək və qiymətləndirməyi bacarmaq. |
| FTN 5 Siyasi prosesləri yönləndirməyi bacarmaq. |

| |
|---|
| FTN 6 Siyasi sistemlər, siyasi rejimlər, siyasi partiyalar, ictimai hərəkatlar, siyasi ideologiya, siyasi psixologiya və siyasi mədəniyyət haqqında biliklərə əsaslanaraq siyasi sahədə tədqiqat aparmağı bacarmaq. |

| **“Sosiologiya” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Sosial və peşə problemlərinin həllində sosial, humanitar və iqtisadi elmlərin əsas prinsip və metodlarından istifadə etməyi bacarmaq. |
| FTN 2 Sosial sahənin və idarəetmənin inkişafında qlobal, milli və regional xüsusiyyətləri və müasir şəraiti nəzərə almaq. |
| FTN 3 Sosial həyatdakı problemlərə münasibətdə müstəqil düşünmə və tənqidi təhlil bacarıqlarını formalaşdırmaq |
| FTN 4 Cəmiyyətin istənilən sferasında yaranan problemlərin üzə çıxarılması və onların daha adekvat həlli yollarının axtarılması səriştəsinə yiyələnmək |
| FTN 5 Sosioloji tədqiqatların həyata keçirilməsi və nəticələrinin təhlil edilməsi texnikasına yiyələnmək |
| FTN 6 Müxtəlif sosial qrupların sosial həyatı, rifahı və sosial sahədə davranış xüsusiyyətlərini bilmək. |
| FTN 7 Milli-mədəni məkanın xüsusiyyətlərini və müxtəlif milli, cins, yaş qruplarının və sosial qurumların fəaliyyətlərini sosial layihə obyekti kimi tətbiq etməyi bacarmaq. |
| FTN 8 Sosioloji biliklərin əsaslarını peşə və peşə fəaliyyətlərində və müxtəlif sosial hadisələrin təhlilində yaradıcı şəkildə tətbiq etmək. |

| **“Ontologiya və idrak nəzəriyyəsi” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Varlığın inkişafının ən ümumi qanunları və qanunauyğunluqlarını ifadə edən kateqoriyaların məzmunu və məntiqi əlaqələrini, materiya, hərəkət, məkan və zaman, onların əlaqələri haqqında fundamental konsepsiyaların tənqidi şərhi və konkret elmlərlə əlaqərini ifadə edən biliklər əldə etmək. |
| FTN 2 Təfəkkürü və dili qnoseoloji səpkidə araşdırmağın əsas prinsiplərinə və müddəalarına yiyələnmək. |
| FTN 3 Həqiqət probleminin fəlsəfi mənasını açmaq, onun əas konsepsiyalarını təhlil etmək, həqiqətin meyarları, yanılma, yalan və dezinformasiya ilə münasibətlərinə dair adekvat biliklərə malik olmaq. |
| FTN 4 Epistemologiyanı nəzəri təfəkkür sistemlərinə daxil etməklə bilik və onun növləri haqqında informasiyalara yiyələnmək. |
| FTN 5Epistemologiyanın biliklərini mənimsəməklə insanların nəzəri və praktiki fəaliyyətlərini tənzimləyən, idrak prosesində onlara düzgün istiqamət götürməyə və idrakın nəticələrini düzgün dəyərləndirməyə imkan verən elmi tədqiqat metodlarına yiyələnmək. |

| |
|---|
| FTN 6 Epistemoloji biliklər qazanmaqla məntiqlə düşünmək, proses və hadisələrə təfəkkürün, zəkanın gözü ilə baxmaq qabiliyyətinə nail olmaq. |

| **“Sosial fəlsəfə” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Sosial-mədəni fenomen, nəzəri-rasional dünyagörüşü kimi sosial fəlsəfənin yaranma tarixi, onun problemlər sahəsi, əsas fəlsəfi kateqoriya və funksiyaları haqqında biliklər əldə etmək. |
| FTN 2 Cəmiyyətin varlığı, strukturu, funksiyaları, sosial dəyişikliklərin mexanizmi və formaları, cəmiyyətin tarixi tipologiyası prinsipləri haqqında biliklərə yiyələnmək. |
| FTN 3 Klassik və müasir sosial-fəlsəfi nəzəriyyələrin problemlər sahəsinə daha dərindən bələd olmaq; professional məsələlərin həlli zamanı humanitar və sosial-iqtisadi elmlərin əsas metod və qanunlarından istifadə etmək. |
| FTN 4 Cəmiyyətin sosial-fəlsəfi təhlilinin özünəməxsus cəhətlərini aşkara çıxarmaq; ictimai inkişafın əsas determinantlarını müəyyən etmək. |
| FTN 5 Tarixi dəyişikliklərin mexanizmi və onlara təsir edən amilləri təhlil edərək qiymətləndirmək; Ontoloji, qnoseoloji, antropoloji, aksioloji problemlərin qarşılıqlı əlaqəsini aşkara çıxarmaq. |
| FTN 6 Sosial gerçəklikdə baş verən problemlər ətrafında müstəqil düşünmək və tənqidi təhlil qabiliyyətinə sahib olmaq; müxtəlif növ mühakimələri məntiqi analiz metodları ilə təhlil etmək, ictimai nitq vərdişlərinə yiyələnmək, diskussiya və müzakirələr aparmaq; öz mövqeyini müdafiə etmək, rəqibini anlamaq və onun fikirlərinə tolerant yanaşmaq. |

| **“Məntiq” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Məntiqin predmeti və əhəmiyyəti, onun yaranması və inkişaf mərhələləri, təfəkkürün əsas forma və qanunları, sual – cavab kompleksi, sübut və təkzibin məntiqi əsasları, biliyin inkişaf forması olan hipotez haqqında biliklər əldə etmək. |
| FTN 2 Məntiqin inkişafının müasir mərhələsi olan simvolik məntiqin başlıca bölmələri – mülahizələr məntiqi və predikatlar məntiqinin əsas elementləri haqqında biliklərə yiyələnmək. |
| FTN 3 Məntiqi biliklərə əsaslanmaqla anlayışlar üzərində düzgün məntiqi əməliyyatlar (tərif, bölgü, ümumiləşdirmə və s.) aparmaq, sübutlu mühakimələr qurmaq vərdişlərinə yiyələnmək. |
| FTN 4 Təbii dildəki mühakimələri simvolik dildə ifadə etməklə onların məntiqi təhlilini vermək, mürəkkəb mühakimələrin və sübutların təhlilində simvolik məntiqin üsullarından istifadə etmək vərdişlərini inkişaf etdirmək. |
| FTN 5 Düzgün və dəqiq fikirləşmək, öz mövqeyini əsaslı və sübutlu şəkildə müdafiə etmək, başqalarının mühakimələrini təhlil etmək, onlardakı səhvləri aşkara çıxarmaq bacarıqlarına yiyələnmək. |

| |
|---|
| FTN 6 Məntiqin prinsip və qanunlarının köməyi ilə hadisələrə obyektiv qiymət vermək, onlardan düzgün nəticələr çıxarmaq vərdişləri qazanmaq. |

| **"Sosial pedaqogika" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Təlimə münasibətinin formalaşmasında sosial-pedaqoji amillərin rolunu təhlil etmək |
| FTN 2 Ümumi və peşə təhsilinin pedaqoji problemlərini aydınlaşdırmaq |
| FTN 3 Ali təhsilin pedaqoji məsələlərini tədqiq etmək |
| FTN 4 Sosial tərbiyənin istiqamətlərini: problemlərini və qarşısında duran vəzifələri təhlil etmək |
| FTN 5 Sosial tərbiyə məsələləri və onun idarə olunması ilə bağlı biliklərl əldə etmək |
| FTN 6 Sosial tərbiyə prosesinin optimallaşdırılması məsələləri barədə biliklərə yiələnmək |

| **"Qədim Şərq fəlsəfəsi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Uzaq Şərqdə fəlsəfi fikrin inkişaf xüsusiyyətləri və tədqiqat obyekti, insanların dünyagörüşünün formalaşdığı ilkin şərtləri və amilləri, Şərqdə təşəkkül tapmış fəlsəfi təlimlərin tarixi özünəməxsusluğu və onlar arasında qarşılıqlı əlaqələri haqqında məlumat əldə etmək. |
| FTN 2 Şərq fəlsəfəsi tarixində keçmiş və müasirliyi əlaqələndirmək keçmişin əsas ideyalarından bacarıqla istifadə etmək, nəzəri bilikləri praktikada tətbiq etmək bacarığına yiyələnmək. |
| FTN 3 Uzaq Şərq filosoflarının təlimlərinin və əsərlərinin xüsusiyyətlərini müəyyən etmək, fəlsəfi mətnlərin məna tutumunu çağdaş terminologiyada ifadə etməyi bacarmaq. |
| FTN 4 Müstəqil olaraq Uzaq Şərqdə keçmiş fəlsəfi problematikanı müasir fəlsəfə ilə müqayisə etmək bacarığına sahib olmaq. |
| FTN 5 Şərq fəlsəfəsi tarixinin aktual problemlərini müəyyənləşdirib təhlil etmək. |
| FTN 6 Şərq fəlsəfəsinin dünya fəlsəfəsi tarixində yerini, rolunu və əhəmiyyətini müəyyənləşdirə bilmək. |

| **"Din fəlsəfəsi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Din fəlsəfəsi haqqında əldə edilmiş biliklər əsasında dünyagörüşünü genişləndirmək. |
| FTN 2 Əldə olunan bilikləri professional və gündəlik fəaliyyətdə istifadə edə bilmək. |
| FTN 3 Müstəqil olaraq dinin aktual problemlərini müəyyənləşdirib təhlil edə bilmək. |
| FTN 4 Din fəlsəfəsinin kateqorial-anlayış aparatı ilə işləyə bilmək. |

| | |
|---|
| FTN 5 Biliyin adi və nəzəri səviyyələrində dini və qeyri-dini dünyagörüşlərin dialoqu kontekstində inandırıcı sübutlar gətirmək bacarığına sahib olmaq. |
| FTN 6 Konfessiyalararası tolerantlıq və digər dini ənənələrə hörmət etmək vərdişinə yiyələnmək. |

| “Etika və estetika” fənnləri üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Etika və estetikanın humanitar və fəlsəfi fənnlər sırasında yerini müəyyən etmək. |
| FTN 2 Fəlsəfi fikir tarixində etik-estetik təlimlər haqqında məlumat əldə etmək. |
| FTN 3 Nəzəri fikirlərə tənqidi münasibət bildirmək, onları sərbəst araşdırmaq bacarığını artırmaq. |
| FTN4 Müxtəlif xalqların adət-ənənələrinə, dünyagörüşünə yanaşmada tolerant və plüralist keyfiyyətləri aşılamaq. |
| FTN 5 Əxlaq və sənət arasındakı bağlılığı, onların qarşılıqlı təsirini təhlil edə bilmək. |
| FTN 6 İncəsənət tarixi və onun sahələrinin xüsusiyyətləri barəsində nəzəri biliklərə yiyələnmək. |

| “Psixologiya” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Psixologiyanın predmeti və metodları, psixologiyanın elmlər sistemində yeri və onun əsas sahələri, psixoloji fikrin əsas inkişaf istiqamətləri haqqında biliklər əldə etmək. |
| FTN 2 İnsan psixikasının quruluşu, davranışın tənzimində şüurun və şüursuzluğun rolu, davranış və fəaliyyətin motivasiyası və psixi tənzimi haqqında təsəvvürə malik olmaq. |
| FTN 3 Psixologiya elminin əsas kateqoriya və anlayışları, psixi olanın idraki, emosional-iradi, motivasyon sahələri, şəxsiyyət, şəxsiyyətin inkişafı və formalaşması xüsusiyyətləri, təfəkkür, ünsiyyət və fəaliyyət, temperament, xarakter və qabiliyyətlər, təhsil və özünüinkişaf problemi haqında biliklərə malik olmaq. |
| FTN 4 Peşəkar və problemli təlim situasiyalarının təhlilini aparmağı, professional ünsiyyəti və qarşılıqlı təsiri, fərdi və birgə qərar qəbulunu, refleksiyanı təşkil etməyi bacarmaq. |
| FTN 5 İnsanların şəxsi və fərdi-psixoloji xüsusiyyətlərinin, eləcə də onların idraki və professional fəaliyyət üslubunun diaqnostikasını aparmağı bacarmaq. |
| FTN 6 Əldə edilmiş bilikləri istər təhsildə pedaqoji sahədə, sənaye və ticarət sahəsində, istərsə də hüquqazidd davranışla mübarizə və s. sahələrdə müxtəlif psixoloji xarakterli praktik problemlərin həllində və qərarların qəbul edilməsində tətbiq etmək. |

| “Arqumentasya nəzəriyyəsi” fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 Arqumentasiya nəzəriyyəsinin predmeti, onun əsas anlayış və kateqoriyaları və müasir arqumentasiya konsepsiyaları haqqında biliklər əldə etmək. |
| FTN 2 Arqumentativ diskursun əsas xüsusiyyətlərini, onun tərkibindəki məntiqi, psixoloji, ritorik komponentləri müəyyən edə bilmək. |

| |
|---|
| FTN 3 Sübutlu arqumentasiyanı sübutlu olmayan arqumentasiyadan, ən müxtəlif arqumentasiya üsullarını və formalarını bir – birindən fərqləndirməyi bacarmaq. |
| FTN 4 Əsaslı və inandırıcı mühakimələr irəli sürmək, başqalarının nitqinə şüurlu və məsuliyyətli münasibət bildirmək vərdişlərinə yiyələnmək. |
| FTN 5 Dialoqun müxtəlif növlərini bir-birindən fərqləndirə bilmək və mübahisələrin, diskussiyaların aparılması qaydaları, metodları ilə bağlı bilğilərə sahib olmaq. |
| FTN 6 Məntiqi – rasional arqumentləri digər arqumentlərdən fərqləndirmək, opponentin mövqeyini tənqid etmək, onun mühakimələrindəki səhvləri, ziddiyyətləri və qeyri – korrekt priyomları aşkara çıxarmaq. |

| **"Antik fəlsəfə" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Antik fəlsəfəyə dair əsaslı biliklər əldə etmək. |
| FTN 2 Qərbdə fəlsəfi fikrin inkişaf xüsusiyyətlərini və tədqiqat obyektini; insanların dünyagörüşünün formalaşdığı ilkin şərtləri və amilləri; qərbdə təşəkkül tapmış fəlsəfi təlimlərin tarixi özünəməxsusluğunu və onlar arasında qarşılıqlı əlaqələri mənimsəmək. |
| FTN 3 Avropa fəlsəfəsi tarixində keçmiş və müasirliyi əlaqələndirmək; keçmişin əsas ideyalarından bacarıqla istifadə etmək; nəzəri bilikləri praktikada tətbiq etmək bacarığına yiyələnmək. |
| FTN 4 Antik dövr filosoflarının təlimlərini və əsərlərini tədqiq etmək, fəlsəfi mətnlərin məna tutumunu çağdaş terminologiyada ifadə etməyi öyrənmək. |
| FTN 5 Müstəqil olaraq keçmiş fəlsəfi problematikanı müasir fəlsəfə ilə müqayisə etmək bacarığını formalaşdırmaq. |
| FTN 6 Tarixi-fəlsəfi tədqiqatlara müasir analitik yanaşma metodundan istifadə qaydasını öyrənmək. |

| **"İslam fəlsəfəsi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 İslam bölgəsində fəlsəfi fikrin formalaşması və inkişaf xüsusiyyətlərinin, İslam Şərqində təşəkkül tapmış müxtəlif fəlsəfi məktəblərin, təlimlərin, həmçinin bölgə filosoflarının fəlsəfi irsinin və onların bəşər fəlsəfəsinə verdiyi qatqının təhlili yollarını mənimsəmək. |
| FTN 2 İslam bölgəsi fəlsəfi təlimlərinin tarixi özünəməxsusluğunu dərk etmək və onları antik yunan fəlsəfəsi ilə müqayisə etmək, İslam fəlsəfəsi ideyalarından bacarıqla istifadə etmək, əldə ediləni bilikləri təcrübədə tətbiq etmək bacarığına yiyələnmək. |
| FTN 3 Müsəlman Şərqi filosoflarının irsinin dünya fəlsəfəsinə verdiyi töhfənin əhəmiyyətini anlamaq, fəlsəfi mətnlərin məzmununu çağdaş fəlsəfədə tətbiq etmək bacarığına sahib olmaq. |
| FTN 4 Müsəlman Şərqi fəlsəfəsinin əsas inkişaf mərhələlərini və hal-hazırkı vəziyyətini müstəqil olaraq təhlil etmək, keçmiş və müasirliyi əlaqələndirmə üsullarına yiyələnmək. |
| FTN 5 İslam bölgəsi fəlsəfəsi tarixinin aktual problemlərinin müəyyənləşdirilib təhlil edilməsi bacarığına malik olmaq. |

| |
|---|
| FTN 6 Əldə olunan biliklər nəticəsində Müsəlman Şərqi ölkələri fəlsəfəsinin dünya fəlsəfəsi tarixində yerini, rolunu və əhəmiyyətini müəyyən edilməsinə nail olmaq. |

| **"Avropa fəlsəfəsi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Avropa fəlsəfəsinin inkişaf tarixi, fəlsəfi ideyaların təkamülü, müxtəlif məktəblər tərəfindən irəli sürülən nəzəriyyələr haqqında məlumatlara yiyələnmək. |
| FTN 2 Orta əsrlərdə və Yeni dövrdə Avropada meydana gəlmiş fəlsəfi ideyaların, yeni istiqamətlərin, cərəyanların, təlimlərin, məktəblərin xarakterik xüsusiyyətlərini araşdıraraq müəyyən etmək və şərh etmək. |
| FTN 3 Fəlsəfə tarixi üzrə ilk mənbələrlə işləmək vərdişinə yiyələnmək. |
| FTN 4 Müstəqil şəkildə keçmiş fəlsəfi problematikanı müasir fəlsəfə ilə müqayisə etmək bacarığını formalaşdırmaq. |
| FTN 5 Fəlsəfi ideyaların tədqiqat məsələlərinin elmi və praktik dəyərini qiymətləndirmək, fəlsəfə tarixindən əldə etdiyi konsepsiyalara yeni təfəkkür kontekstindən tənqidi, yaradıcı yanaşmaq və onu əsaslandırmaq. |
| FTN 6 Avropa fəlsəfəsi tarixi üzrə geniş biliyə malik olaraq onları professional fəaliyyətdə istifadə etmək bacarığına sahib olmaq. |

| **"Müasir fəlsəfə" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Şərq və Qərb fəlsəfəsinin tarixi inkişaf prosesində meydana gəlmiş yeni baxışlar sistemi, müasir məktəblər, cərəyanlar, təlimlər və onların əsas xüsusiyyətləri haqqında elmi-nəzəri biliklərə yiyələnmək. |
| FTN 2 Şərq və Qərb mənəviyyatının çağdaş dünyada tarixi prosesin inkişafına təsir gücü və əsas mahiyyəti haqqında bilgilərə sahib olmaq |
| FTN 3 Müasir Şərq və Qərb filosoflarının əsərlərinin dünya fəlsəfəsinə verdiyi töhfələrinin əhəmiyyətini izah edə bilmək. |
| FTN 4 Dünya xalqlarının dünyagörüşünün inkişafına təsir göstərən əsas şərtləri, Şərqlə Qərbin qarşılıqlı mədəni inkişaf prosesində yaranan yeni fəlsəfi düşüncəni təhlil edə bilmək. |
| FTN 5 Dünya fəlsəfəsi tarixinin mövcud problemlərini müəyyənləşdirib, bu günki vəziyyətini müstəqil olaraq təhlil etmək, keçmiş və müasirliyi əlaqələndirmək bacarığına sahib olmaq. |
| FTN 6 Fəlsəfi problemlərin elmi və praktik dəyərini qiymətləndirmək, fəlsəfə tarixindən əldə etdiyi konsepsiyalara yeni təfəkkür kontekstindən tənqidi, yaradıcı yanaşmaq və onu əsaslandırmaq bacarığına yiyələnmək. |

| **"Türk xalqların fəlsəfi fikir tarixi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Türk xalqlarının fəlsəfi-tarixi irsi haqqında müfəssəl məlumat əldə etmək. |

| |
|---|
| FTN 2 Türk fəlsəfəsinin tarixi inkişaf mərhələlərini əks etdirən mətnləri, elmi-nəzəri mənbələri təhlil etmək bacarığına sahib olmaq. |
| FTN 3 Müasir türk fəlsəfəsinin öyrənilməsində sistemli elmi yanaşma tətbiq edə bilmək. |
| FTN 4 Fəlsəfi fikrin inkişafında milli və ümumbəşəri cəhətlərin vəhdətini təhliletmə bacarığına yiyələnmək. |
| FTN 5 Nəzəri biliklərə tənqidi münasibət bildirmək, müstəqil mülahizə irəli sürmək. |
| FTN 6 Əldə olunan biliklərdən professional fəaliyyətdə istifadə etmək. |

| **"Siyasət fəlsəfəsi" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Demokratiya, insan hüquqları və azadlıqları, hakimiyyətin bölünməsi, ədalət, nizam və d., müasir dövrdə aktual olan kateqoriyaların meydana çıxması, siyasi fikir tarixində inkişaf etdirilməsi, qərb və şərq siyasi fikrində bu kateqoriyalara baxışların təhlili əsasında siyasi proseslərə islahatçı və yenilikçi kimi yanaşmağı bacarmaq. |
| FTN 2 Müxtəlif tarixi dövrlərdə sosial-siyasi düşüncələrin təkamülünü, əsas konsepsiyaları müqayisə etməyi və müasir siyasi proseslərə təsiri kontekstində qiymətləndirməyi bacarmaq. |
| FTN 3 Siyasi ideologiyaların dövlət maraqlarına təsiri və onun formalaşmasında rolunu təhlil etməyi bacarmaq. |
| FTN 4 Müasir siyasi sistemin formalaşmasına təsir etmiş vacib elmi nəzəri təlimləri ilkin mənbədən oxumağı və təhlil etməyi bacarmaq. |
| FTN 5 Siyasi partiyaların və siyasi liderlərin fəaliyyətinin ideoloji aspektlərini təhlil edə və qiymətləndirə bilmək. |
| FTN 6 Siyasi elitanın fəaliyyətində və siyasi kütlələrin davranışlarında ideoloji aspektləri müəyyən etmək və tənzimləyə bilmək. |
| FTN 7 Siyasi sahədə tədqiqat aparmaq və təhlil etmək üçün qazandığı metodolji bilikləri tətbiq etməyi bacarmaq. |
| FTN 8 İctimai-siyasi institutların və proseslərin formalaşması və inkişafı haqqında qazandığı biliklər əsasında peşə fəaliyyətində səmərəli qərarlar qəbul etmə səriştəsinə malik olmaq. |
| FTN 9 Siyasi proseslər haqqında informasiyaları ümumiləşdirmək, sistemləşdirmək, tənqidi təhlil əsasında onların həllinin optimal yolları barədə qənaətlər irəli sürmək bacarıqlarına malik olmaq. |

| **"Strateji idarəetmə" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 İnformasiya resurslarının strateji idarəolunmasını bacarmaq. |
| FTN 2 Strateji məqsədləri düzgün formalaşdırmaq, strategiyanın hazırlanması prosesində vəziyyətin analizini aparmağı bacarmaq. |
| FTN 3 İnformasiya və psixoloji savaş şəraitində müəyyən olunmuş strateji idarəetmə vəzifələrini icra etməyi bacarmaq. |
| FTN 4 Siyasət, sosial və iqtisadi sahələrdə strateji idarəetməni həyata keçirməyi bacarmaq. |

| |
|---|
| FTN 5 Qərar qəbul etmə prosesi, bu prosesdə risklərin minimuma endirilməsi, strategiyaların reallaşdırılması, onlara nəzarət etməklə bağlı səriştəyə malik olmaq. |
| FTN 6 Strateji idarəetmənin metodlarını praktik tətbiq etməyi və onun effektliyini qiymətləndirə bilmək. |

| **“Hüquq fəlsəfəsi” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Hüquq,qanun anlayışları, hüquqşünaslığın əsas problemləri haqqında biliklərə yiyələnmək. |
| FTN 2 Hüquqi hadisələrin sosial mahiyyətinin aşkar edilməsi istiqamətində vəzifələri həll etməyi bacarmaq. |
| FTN 3 Hüquq fəlsəfəsinin aktual problemlərini həll etməyi bacarmaq. |
| FTN 4 Əsas fəlsəfi-hüquqi baxışlar haqqında biliklər əldə etmək. |
| FTN 5 Yüksək hüquqi şüur və hüquqi mədəniyyətə yiyələnmək. |
| FTN 6 Əldə edilən elmi nəticə və metodlardan nəzəri və praktik problemlərin həllində istifadə etməyi bacarmaq. |

| **“Azərbaycan fəlsəfəsi tarixi” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Azərbaycanda fəlsəfi fikrin formalaşması və inkişaf xüsusiyyətləri haqqında, Azərbaycanda təşəkkül tapmış müxtəlif fəlsəfi məktəblər, təlimlər haqqında yetərli biliyə malik olmaq, həmçinin Azərbaycan filosoflarının irsini təhlil edə və onların bəşər fəlsəfəsinə verdiyi qatqını araşdıra bilmək. |
| FTN 2 Azərbaycanda fəlsəfi təlimlərinin tarixi özünəməxsusluğunu və onların antik yunan fəlsəfəsi ilə qarşılıqlı əlaqəsini müəyyən edə bilmək. |
| FTN 3 Azərbaycanda fəlsəfi ideyaların meydana gəlmə səbəbləri, mükəmməl fəlsəfi təlimlərin formalaşması və burada təşəkkül tapan dini-fəlsəfi təlimlərin, cərəyanların qarşılıqlı əlaqəsi, bəşər mədəniyyəti tarixində Azərbaycan fəlsəfəsinin əhəmiyyəti, qanunauyğunluğu haqqında biliklərə yiyələnmək. |
| FTN 4 Azərbaycan fəlsəfəsi tarixinin əsas inkişaf mərhələlərini və hal-hazırkı vəziyyətini təhlil etmək; keçmiş və müasirliyi əlaqələndirmək bacarığını formalaşdırmaq. |
| FTN 5 Azərbaycan filosoflarının təlimlərini və əsərlərini tədqiq etmək, fəlsəfi mətnlərin məna tutumunu müasir dünyamızda uyğun şəkildə istifadə etmək. |
| FTN 6 Əldə olunan bilikləri peşəkar fəaliyyətdə istifadə etmək. |

| **“İqtisadiyyatın əsasları” fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 İqtisadi nəzəriyyənin əsas kateqoriyaları və anlayışları haqqında biliklər əldə etmək; iqtisadi subyektlərin davranış prinsiplərini öyrənmək. |

| |
|---|
| FTN 2 İqtisad elminin konsepsiyaları və istiqamətləri, iqtisadi modellər haqqında təhlillərlə tanış olmaq; iqtisadiyyatda bazar mexanizminin rolu haqqında təsəvvürə malik olmaq, iqtisadi hadisə və prosesləri məzmun və formal təhlilinin ilkin vərdişlərini öyrənmək. |
| FTN 3 İqtisadi proseslər, iqtisadi mexanizmlər, iqtisadi resurslar, iqtisadi qanunauyğunluqlar haqqında biliklər əldə etmək. |
| FTN 4 Makroiqtisadiyyat və mikroiqtisadiyyatın əsasları haqqında biliklər formalaşdırmaq. |
| FTN 5 Bazar iqtisadiyyatının fəaliyyət qanunauyğunluqlarını; bazar iqtisadiyyatında dövlətin rolu və funksiyalarını qiymətləndirə bilmək. |
| FTN 6 İqtisadi subyektlərin qərar qəbul etmə mexanizmini, ümumi iqtisadi göstəriciləri təhlil etmək. |

| **"Mülki müdafiə" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 Fövqəıladə hadisələrin təsnifatı, onların tam xarakteristikası, Mülki müdafiənin yaranma tarixi, onun FH-da rolu və vəzifələrini öyrənmək. Mülki müdafiə ilə bağlı normativ-hüquqi sənədləri bilmək; |
| FTN 2 Müasir dövürdə sülh və müharibə dövürlərində Mülki müdafiənin rolunu və vəzifələrini bilmək. Texnogen FH-də hadisələrin qarşısının alınması yolları, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini bilmək. Karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezinfeksiyası, kimyəvi zəhərlənmə ocaqlarındadeqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını bilmək; |
| FTN 3 Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün Dövlət sisteminin rolu və vəzifələrini bilmək. Hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin yaradılmasını öyrənmək; |
| FTN 4 Fövqəladəhallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirmək. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bilmək. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini bacarmaq. Fövqəladə hallar zamanı əhalinin səmərəli mühafizəsinin təşkilini bacarmaq. Kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarını bacarmaq. Fərdi mühafizə vasitələri və onlardan istifadə qaydalarını bilmək. Fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirmək; |
| FTN 5 Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarını bilmək. Radiasiya və kimyəvi kəşfiyyat cihazlarını işlətməyi bacarmaq. Mülki müdafə üzrə idaretmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini bilmək; |
| FTN 6 FH-in nəticələrinin aradan qaldırılması yollarını bilmək. Qəza- xilasetmə və digər təxirəsalınmaz işlərin dağıntı ocaqlarında təşkil etmək və aparılmasını həyata keçirmək. Əhalinin mülki müdafiə sahəsində hazırlanmasının prinsiplərini öyrənmək.Fövqəladə hadisələr zamanı dağıntı ərazisində ilk tibbi yardım aparmağı bacarmaq. |

**Əlavə 2**

## Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisasın Təhsil Proqramının təlim nəticələrinin əldə olunmasına fənnlərin necə dəstək verdiyini müəyyən etməlidir.

| Blokun adı | Fənlərin adı | Proqramın təlim nəticələri | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN7 | PTN8 | PTN9 | PTN10 |
| Ümumi fənlər | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | X | | | | | | | | | |
| | Azərbaycanın müasir dövlətçilik tarixi | X | | | | | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | X | | | | | | | | | |
| İxtisas fənləri | Müasir informatika texnologiyaları və informatika təhlükəsizliyi | X | | | | | | | | | |
| | Müasir təbiətşünaslığın konsepsiyaları | | | | X | | | | | | |
| | Siyasətin nəzəriyyəsi | | | | | | | X | | | |
| | Sosiologiya | | | | | | | X | | | |
| | Ontologiya və idrak nəzəriyyəsi | | | X | | | | | | | |
| | Sosial fəlsəfə | | | | | | | X | | | |
| | Məntiq | | | | | | | | | X | |
| | Sosial pedaqogika | | | | | | | X | | | |
| | Qədim Şərq fəlsəfəsi | | | | | X | | | | | |
| | Din fəlsəfəsi | | | | | | | | X | | |
| | Etika və estetika | | | | | | | | X | | |
| | Psixologiya | | | | | | | X | | | |
| | Arqumentasiya nəzəriyyəsi | | | | | | | | | X | |
| | Antik fəlsəfə | | | | | X | | | | | |
| | İslam fəlsəfəsi | | | | | | X | | | | |
| | Avropa fəlsəfəsi | | | | | X | | | | | |
| | Müasir fəlsəfə | | | | | X | | | | | |
| | Türk xalqlarının fəlsəfi fikir tarixi | | | | | X | | | | | |
| | Siyasət fəlsəfəsi | | | | | | | X | | | |
| | Strateji idarəetmə | | X | | | | | | | | |
| | Hüquq fəlsəfəsi | | X | | | | | | | | |
| | Azərbaycan fəlsəfə tarixi | | | | | | X | | | | |
| | İqtisadiyyatın əsasları | | | | | | | X | | | |
| | Mülki müdafiə | | | | | | | | | | X |